## Bakı məktəblərində çalışan müəllimlərin orta aylıq əməkhaqqı 741 manat olub



**Paytaxt məktəblərində çalışan müəllimlərin orta aylıq əməkhaqqı 2021-ci ildə 741 manat təşkil edib. Bu barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib.**

Qeyd edək ki,BŞTİ-nin tabeliyində 310 ümumi təhsil məktəbi, 3 xüsusi ümumi orta məktəb və 5 əyani-qiyabi axşam məktəbi olmaqla, cəmi 318 məktəb və 5 Uşaq-Gənclər İnkişaf Mərkəzi fəaliyyət göstərir.

*BŞTİ-nin tabeliyindəki məktəblərdə 467 722 şagirdin təlim-tərbiyəsi ilə 28 226 müəllim məşğul olur.*

## Bu il 6324 şəhid ailəsi üzvünün vəsiqəsi verilib



**2020-ci ilin dekabr ayından bu günədək 6471 şəhid ailəsi üzvünün vəsiqəsi hazırlanıb, Sosial Xidmətlər Agentliyinin ərazi filialları və Bakı DOST mərkəzləri tərəfindən təqdim olunub.**

Agentlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, 2021-ci ildə isə 6324 şəhid ailəsi üzvünün vəsiqəsi hazırlanaraq təqdim edilib.

*Qeyd oluub ki, şəhid ailəsi üzvlərinin vəsiqə ilə təmin olunması davam etməkdədir.*


❒ № 238 (5520), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 28 dekabr 2021-ci il (çərşənbə axşamı)





## Rusiya Müdafiə Nazirliyi açıqladı

### "NATO Rusiya ilə silahlı münaqişəyə hazırlaşır"

**"Şimali Atlantika Alyansı Rusiya ilə genişmiqyaslı münaqişəyə hazırlaşır".**

APA-nın "Ria Novosti"yə istinadla xəbərinə görə, bu barədə Rusiya Federasiyasının müdafiə nazirinin müavini Aleksandr Fomin xarici ölkələrin Moskvada akkreditasiya olunmuş hərbi attaşeləri üçün keçirdiyi brifinqdə bildirib.

"Blokun hərbi quruculuğu bütövlüklə Rusiya ilə yüksək intensivlikli hərbi konfliktə yönəlib" deyə, Fomin əlavə edib.

Fomin vurğulayıb ki, NATO-nun doktrina sənədlərində, o cümlədən 2019-cu ilin hərbi strategiyasında Rusiya "koalisyon təhlükəsizliyə birbaşa təhlükə kimi göstərilir".

Nazir müavini eyni zamanda xatırladıb ki, "Roma bəyannaməsi öz qüvvəsində qalır. Bu bəyannamədə göstərilib ki, Rusiya və Alyans bir-birini düşmən kimi görmür. Bu müddəa 2010-cu ildə Lissabonda keçirilən NATO-Rusiya sammitində də təsdiqlənib".



## Zakir Həsənov əmr edib

### Bayram günlərində orduda ayıq-sayıqlıq artırılmalıdır

**Dünən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri cəlb olunub. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik, birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər müşavirəyə videobağlantı vasitəsilə qoşulublar.

(səh.2)

## Parlamentdə "Media haqqında" qanun layihəsi növbəti dəfə müzakirə olunacaq



**Bu gün Milli Məclisdə geniş tərkibdə "Media haqqında" qanun layihəsinə həsr olunan növbəti müzakirə təşkil olunacaq.**

Müzakirədə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri İsmət Səttarov, Milli Məclisin deputatları, media qurumlarının rəhbərləri iştirak edəcək.

*Qeyd edək ki, Milli Məclisin sədri Sahibə Qafarova parlamentin dekabrın 20-də keçirilən iclasında "Media haqqında" qanun layihəsinin geniş tərkibdə müzakirəsinin keçirilməsi ilə bağlı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi və İnsan hüquqları komitəsinə müvafiq tapşırıq vermişdi.*

# "Ermənistandan müsbət mesajlar gözləyirik"

**Ceyhun Bayramov:** "Yaxın aylarda sərhədlərin delimitasiyası üzrə komissiya formalaşacaq"



**"Bizim mövqeyimiz sistemlidir, açıqdır və ədalətlidir. Təklif etdiklərimiz daha geniş müstəvidə region üçün əlverişlidir"**

**"Azərbaycan Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını tam dəstəkləyir".**

Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov 2021-ci ilin yekunlarına dair mətbuat konfransında deyib. Nazir bildirib ki, Prezident İlham Əliyev də bəyan edib ki, Azərbaycan Ermənistanla münasibətlərin normallaşmasının, sülh müqaviləsinin bağlanmasının tərəfdarıdır: "Biz Türkiyənin bütün səviyyələrdə verdiyi mesajı yüksək qiymətləndiririk. Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu bu sahədə prosesin Azərbaycanla koordinasiya edildiyini qeyd edir. Dövlətlərarası münasibətlərin normallaşmasından danışırıqsa, münasibətlərin normallaşmasının bir fundamenti olmalıdır. Bu da beynəlxalq hüququn norma və prinsipləridir. Beynəlxalq hüququn norma və prinsipləri əsasında dövlətlərlə münasibətləri inkişaf etdiririk.

(səh.2)



## Bayden 770 milyard dollarlıq müdafiə büdcəsini imzalayıb

**ABŞ prezidenti Cozef Bayden 2022-ci maliyyə ili üçün (oktyabrın 1-i başlayıb) təxminən 770 milyard dollarlıq müdafiə büdcəsini imzalayıb.**

Trend-in məlumatına görə, bu barədə Ağ Evin açıqlamasında deyilir.

Bildirilir ki, C.Bayden Müdafiə Nazirliyinin proqramları, hərbi tikinti, Energetika Nazirliyinin daxili təhlükəsizlik proqramları və kəşfiyyat proqramlarını əhatə edən 2022-ci maliyyə ili üçün müdafiə büdcəsini imzalayıb.

# Qarşılıqlı etimad mühiti yaradılır

### Tanınmış xadimlərin, ziyalıların topluma təsir imkanları böyükdür

**Məlumdur ki, dekabrın 23-24-də Moskva şəhərində Azərbaycan və Ermənistan ictimaiyyətinin nümayəndələri arasında görüş keçirilib. Təmas Rusiya prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyun təşəbbüsü və iştirakı ilə baş tutub.**

Görüşdə iki xalq arasında gərginliyi azaltmaq istiqamətində atılacaq addımlar müzakirə edilib. Rusiya paytaxtında keçirilən görüşdə Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, kinorejissor Ayaz Salayev və Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova iştirak ediblər. Analoji görüşün gələn ilin əvvəlində də keçirilməsinə dair razılıq əldə edilib.

(səh.4)




## Yoluxma sayı tamam azaldı

### 306 nəfər koronavirusa yoluxub, 11 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 306 yeni yoluxma faktı qeydə alınıb, 560 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 11 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 614 936 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 595 658 nəfər müalicə olunaraq sağalıb, 8 308 nəfər vəfat edib, aktiv xəstə sayı 10 970 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 6 482, ötən müddət ərzində isə ümumilikdə 5 824 190 test aparılıb.*

## Magistraturaya qəbul imtahanının vaxtı açıqlanıb




**Dövlət İmtahan Mərkəzi gələn il üçün magistratura səviyyəsinə qəbul imtahanının (I cəhd) vaxtını açıqlayıb.**

Magistratura səviyyəsi üzrə I mərhələ üçün qəbul imtahanının fevralın 20-də keçirilməsi planlaşdırılır.

Fevral ayında həmçinin peşə liseylərinin şagirdləri üçün buraxılış imtahanının da keçirilməsi nəzərdə tutulub. Şagirdlər fevralın 27-də imtahan verəcəklər.




## Hökm oxundu

Eldəniz Səlimov 3 il 6 ay azadlıqdan məhrum edilib

(səh.2)

## "Mən niyə yaltaqlıq etməliyəm ki?"

Tahir Kərimli: "Tək istəyiniz odur ki, biz də sizin kimi rəhbərliyi söyək. Siz onu görməyəcəksiniz"

(səh.4)



# Zakir Həsənov əmr edib

## Bayram günlərində orduda ayıq-sayıqlıq artırılmalıdır



**Dünən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri cəlb olunub. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik, birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər müşavirəyə videobağlantı vasitəsilə qoşulublar.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Hadrut qəsəbəsinə səfəri zamanı Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları müşavirə iştirakçılarına çatdırıb. Azərbaycan xalqı və Silahlı Qüvvələrin Ali Baş Komandanı tərəfindən rəşadətli Ordumuza ən yüksək qiymət verildiyi qeyd olunub.

Müşavirədə dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə mövcud vəziyyət təhlil edilib. Nazir xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsini, xüsusilə qarşıdan gələn bayram günlərində ayıq-sayıqlığın artırılmasını əmr edib.

Qoşunlarda keçirilən təlimləri müsbət qiymətləndirən nazir bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə müxtəlif təlim və praktiki məşqlərin real döyüş şəraitinə uyğun, gecə və gündüz vaxtı aparılması ilə əlaqədar tapşırıq verib.

Qış dövrü ilə əlaqədar bölmələrin maddi-texniki və mühəndis təminatı, o cümlədən şəxsi heyətin xidmət şəraitinin yaxşılaşdırılması və tibbi təminatının gücləndirilməsinə xüsusi diqqət yetirilməsi, hərbi qulluqçuların isti geyim və yeməklərlə vaxtında təmin edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Müdafiə naziri həmçinin tərbiyəvi işin planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazır olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daha da gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

# İlham Əliyev Yunanıstanın keçmiş Prezidentinin vəfatı ilə bağlı başsağlığı verib



**Prezident İlham Əliyev Yunanıstan Respublikasının Prezidenti Katerina Sakellaropuluya başsağlığı məktubu göndərib.**

Məktubda deyilir:

"Hörmətli xanım Prezident,

Yunanıstan Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Karolos Papulyasın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Karolos Papulyasın Azərbaycan-Yunanıstan əlaqələrinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirir, onunla görüşlərimi həmişə ən xoş təəssüratlarla xatırlayıram.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, mərhumun ailəsinə və bütün Yunanıstan xalqına dərin hüznlə başsağlığı verirəm".

# "Revanşist qüvvələrin mənfi planlarını pozmalıyıq"



## **Səməd Seyidov:** "ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq forumuna sədrliyimiz çox əhəmiyyətli hadisədir"

**2022-ci ilin yanvar-aprel aylarında Azərbaycan ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq forumuna sədrlik edəcək.**

Xarici işlər naziri Ceyhun Bayramov keçirdiyi mətbuat konfransı zamanı bildirib ki, ATƏT-in hərbi-siyasi ölçüsünü əhatə edən və təşkilatın bu sahədə əsas strukturunu təşkil edən bu quruma sədrlik bir tərəfdən çox məsuliyyətlidir. Nazirin fikrincə, digər tərəfdən isə bu mövzu ölkəmizin mövqeyinin çatdırılması və inkişaf etdirilməsi üçün çox əlverişli bir platformadır.

**Foruma sədrliyin Azərbaycana gətirəcəyi yeniliklərlə bağlı "Şərq"ə danışan Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) Azərbaycan nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov bildirib ki, Azərbaycanın foruma sədrlik etməsi tariximizdə çox mühüm hadisə olacaq:** "2022-ci ildə ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq forumuna Azərbaycanın sədrliyi çox əhəmiyyətli olacaq. Əvvəllər qaçqın və məcburi köçkünlərin təhlükəsizliyi ilə bağlı məsələlər gündəmdə idi. Torpaqlarımızı işğaldan azad etdikdən sonra sülhü təmin etmək əsas amalımız oldu.

İndi isə əsas məqsəd qara qüvvələrin təhlükəsizliyimizə zərər yetirməyinin qarşısını almaqdır. Bizə qarşı revanşist qüvvələrin mənfi cəhdlərini, planlarını pozmalıyıq. Sədrlik etdiyimiz müddətdə bizim təhlükəsizliyimiz də müdafiə olunacaq".

**Xanlar ƏLİBƏY**

# "Ermənistandan müsbət mesajlar gözləyirik"



## Ceyhun Bayramov: "Yaxın aylarda sərhədlərin delimitasiyası üzrə komissiya formalaşacaq"

**"Azərbaycan Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını tam dəstəkləyir". Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov 2021-ci ilin yekunlarına dair mətbuat konfransında deyib. Nazir bildirib ki, Prezident İlham Əliyev də bəyan edib ki, Azərbaycan Ermənistanla münasibətlərin normallaşmasının, sülh müqaviləsinin bağlanmasının tərəfdarıdır:**

"Biz Türkiyənin bütün səviyyələrdə verdiyi mesajı yüksək qiymətləndiririk. Türkiyə XİN başçısı Mövlud Çavuşoğlu bu sahədə prosesin Azərbaycanla koordinasiya edildiyini qeyd edir. Dövlətlərarası münasibətlərin normallaşmasından danışırıqsa, münasibətlərin normallaşmasının bir fundamenti olmalıdır. Bu da beynəlxalq hüququn norma və prinsipləridir. Beynəlxalq hüququn norma və prinsipləri əsasında dövlətlərlə münasibətləri inkişaf etdiririk. Bu sahədə istisna Ermənistan olub. Biz də Ermənistana beynəlxalq hüququn norma və prinsipləri əsasında münasibətlərin qurulmasını təklif edirik".

### "Azərbaycan milli maraqlara söykənən xarici siyasət həyata keçirir"

**Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycan xarici siyasətinin əsas fəlsəfəsi, prioritetləri hər zaman davamlı olub:** "Azərbaycan fəal, şəffaf, beynəlxalq hüquqa əsaslanan, milli maraqlara söykənən xarici siyasət həyata keçirir və 2022-ci ildə də bu prioritetlər əsas olaraq qalacaq. Dost, qardaş ölkələrlə münasibətləri inkişaf etdirmək, bir-birini dəstəkləmək də prioritetlərimiz sırasında olacaq".

### "NATO ilə geniş dialoq gündəliyimiz var"

**XİN başçısı qeyd edib ki, ABŞ və Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlıq mövcuddur, müəyyən sahələrdə isə əlaqələr çox sıxdır.** Amma nazirin sözlərinə görə, elə sahələr var ki, orada əməkdaşlıq qədər dərin deyil: "Təhlükəsizlik, enerji təhlükəsizliyi, beynəlxalq terrorizmə qarşı mübarizə, qaçaqmalçılıqla mübarizə, sərhədlərin gücləndirilməsi istiqamətində əməkdaşlığı qeyd edə bilərik. Humanitar müstəvidə, təhsil sahəsində əməkdaşlıq var. ABŞ Azərbaycanla əməkdaşlıq istiqamətlərini genişləndirməyə dair dialoqda maraqlıdır, bunun üçün intensiv görüşlər, təmaslar həyata keçirilir". NATO ilə əlaqələrə də toxunan nazir Azərbaycanın hərbi alyansın missiyalarında, xüsusilə Əfqanıstandakı iştirakının yüksək qiymətləndirildiyini vurğulayıb: "ABŞ Dövlət katibi Entoni Blinken Azərbaycana təşəkkür məktubu ünvanlayıb. NATO ilə əməkdaşlığımızın dərin tarixi kökləri var. Geniş dialoq gündəliyimiz var. Təşkilatın rəhbərliyi tərəfindən bizim tərəfdaşlığımız xüsusi vurğulanır".

### "Azərbaycan və Aİ arasında sazişin gələn il yekunlaşdırılması mümkün olacaq"

Ceyhun Bayramov bəyan edib ki, Avropa İttifaqı (Aİ) ilə post-münaqişə dövründə münasibətlərə gəlincə, Aİnin regiona marağının artdığını görürük: "Ölkəmizə və bölgəyə çoxsaylı səfərlər, çoxsaylı görüşlər bunu deməyə əsas verir. Azərbaycan və Aİ arasında 2024-cü ilə qədər əməkdaşlıq prioritetləri artıq təsdiqlənib. Aİ və Azərbaycan arasında ikitərəfli saziş üzrə danışıqlar davam edir. Bu il bu sazişlə bağlı fikir ayrılıqları minimuma endirilib. Hesab edirik ki, 2022-ci ildə bu sazişin yekunlaşdırılması mümkün olacaq".

> "Bizim mövqeyimiz sistemlidir, açıqdır və ədalətlidir. Təklif etdiklərimiz daha geniş müstəvidə region üçün əlverişlidir"

### "Bu il Azərbaycan ikitərəfli əlaqələri inkişaf etdirib"

Nazir vurğulayıb ki, 2021-ci ildə Azərbaycan ikitərəfli əlaqələri inkişaf etdirib, bu istiqamətdə ardıcıl işlər görülüb. Onun sözlərinə görə, il ərzində 10 ölkənin XİN başçısı Azərbaycana rəsmi səfərə, 8 ölkənin XİN başçısı isə işgüzar səfərə gəlib: "Azərbaycan beynəlxalq tərəfdaşlarla 27 yeni müqavilə imzalayıb, eyni zamanda, indiyədək imzalanmış 17 müqavilə təsdiqlənərək qüvvəyə minib".

### "Azərbaycan İsraillə münasibətlərin inkişafında maraqlıdır"

**C.Bayramov diqqətə çatdırıb ki, İsrailin Azərbaycanda səfirliyi fəaliyyət göstərir, əməkdaşlıq gündəliyimiz genişdir.** Nazir qeyd edib ki, İsraildə Azərbaycan dövlətinin müvafiq qurumlarının bölmələri - turizm sahəsində müvafiq qurum və ticarət nümayəndəliyi fəaliyyətdədir: "Azərbaycan və İsrail arasında hərbi əməkdaşlıq mövcuddur. Dostluq münasibətləri və əməkdaşlığın inkişaf etməsində maraqlıyıq".

### "Üçtərəfli İşçi qrupu çərçivəsində təmaslar davam edir"

**C.Bayramov bəyan edib ki, Azərbaycan-Rusiya-Ermənistan təmsilçilərindən ibarət İşçi qrupu səviyyəsində görüşlər keçirilir:** "İşçi qrupu yaradılan zaman bizim ilkin gözləntilərimiz indiyə uyğun deyildi. Çünki məsələlərin daha sürətlə inkişafını gözləyirdik. Təbii ki, açıq qalan suallar var, bu aydındır. Yanvar ayı ilə müqayisədə İşçi qrupu üzvlərinin hansı sahələrdə razılığı var, hansı sahələrdə yoxdur, biz bundan məlumatlıyq. Lakin yekun nəsə demək doğru deyil, çünki ortadakı razılaşma hüquqi sənəd formasında deyilsə, sabah bu, dəyişə bilər". XİN başçısı Azərbaycan tərəfinin ilk gündən fəal şəkildə İşçi qrupunun fəaliyyətinə qatıldığını, bunun bu formada da davam edəcəyini qeyd edib: "İnanırıq ki, bu işi davam etdirmək lazımdır, tərəflərin öhdəlikləri var və yerinə yetirilməlidir. Buna görə də prosesə tərəf olan ölkələrin mövqeyi birmənalı olmalıdır. Bizim mövqeyimiz sistemlidir, açıqdır və ədalətlidir. Bizim təklif etdiklərimiz daha geniş müstəvidə region üçün əlverişlidir".

### "Azərbaycan "3+3" formatında keçirilmiş görüşü müsbət qiymətləndirir"

**Xarici işlər naziri deyib ki, "3+3" regional müzakirə platformasının yaradılması təşəbbüsü Azərbaycan və Türkiyə prezidentləri tərəfindən irəli sürülüb.** C.Bayramov xatırladıb ki, dekabr ayında "3+3" formatının təsis iclası Moskva şəhərində keçirilib: "İlk görüş "3+3" deyil, "3+2" formatında baş tutub. Məqsəd ilkin fikir mübadiləsi aparmaq idi. Region ölkələrinin problemləri masa arxasında müzakirə etməsi müsbət bir haldır. Biz bu görüşü müsbət qiymətləndirir, ilkin razılaşmaları məqbul sayırıq. Nəqliyyat, kommunikasiya, etimad quruculuğu və bir sıra digər məqamlar müzakirə mövzusu olub. Növbəti görüşlərin rotasiya əsasında ölkələrdə keçirilməsi barədə razılıq əldə olunub. Əlaqələndirmə işləri xarici işlər nazirlikləri tərəfindən aparılacaq. Digər sahəvi nazirliklərin də koordinasiyalı şəkildə prosesdə iştirakı istisna olunmur. Bu platforma çərçivəsində daha yüksək səviyyəli görüş keçirilə bilər".

### "Komissiyanın yaradılmasına bütün tərəflər razılıq verməlidir"

**XİN rəhbəri qeyd edib ki, Ermənistanla sərhədlərin müəyyənləşdirilməsi istiqamətində işlərə başlamaq üçün Komissiyanın yaradılmasına bütün tərəflər razılıq verməlidir.** Nazir Azərbaycan tərəfinin bu Komissiyanın yaradılmasına razılıq verdiyini diqqətə çatdırıb: "Düşünürük ki, qarşı tərəf də bu məsələnin ciddiliyini anlayır, ölkələr arası da beynəlxalq sərhəd müəyyənləşməlidir. İnanırıq ki, yaxın zamanda qarşı tərəfdən də müsbət mesaj olacaq. Ona görə düşünürük ki, yaxın aylarda bu Komissiya formalaşacaq".

### "Gələn il Ermənistana qarşı bir neçə məsələ üzrə iddia qaldırılacaq"

XİN başçısı vurğulayıb ki, yaxın zamanlarda bir neçə konvensiya üzrə, əsasən ekologiya, ətraf mühitə dəymiş ziyan, Azərbaycanın enerji resurslarından qanunsuz istifadəyə dair Ermənistanı məsuliyyətə cəlb etmək üçün Azərbaycan beynəlxalq arbitrajlara müraciət edəcək: "Bu, 2022-ci ildə qarşıda duran əsas vəzifələrdəndir".

**İsmayıl**

# MTRŞ: Şuşa və Hadrutda televiziya yayımı üçün boş olan tezliklər müəyyən olunub



**Ölkəmizin işğaldan azad olunmuş ərazilərində yerüstü rəqəmsal televiziya yayım şəbəkəsinin qurulması məqsədilə müvafiq hesablamalar aparılıb, əhatə zonaları çıxarılıb, Şuşa və Hadrut radio-televiziya yayım stansiyalarından televiziya yayımının həyata keçirilməsi üçün istifadəyə yararlı boş olan tezliklər müəyyən olunub.**

Bu barədə Milli Televiziya və Radio Şurasının 2021-ci il üzrə hesabatda bildirilib.

Eyni zamanda qeyd edilib ki, müvafiq əhatə zonasını təmin edə biləcək televiziya vericilərinin gücləri hesablanıb, gələcəkdə qurulacaq radio-televiziya antenaları üçün qüllənin forması və hündürlüyü haqqında təkliflər verilib. Hesablamalar zamanı Ermənistan Respublikası ərazisindən yaradıla bilən interferensiyaların səviyyələri nəzərə alınıb.

"Ölkəmizin işğaldan azad olunmuş ərazilərində radio yayım şəbəkəsinin qurulması üçün hesablamalar aparılıb, əhatə zonaları çıxarılıb. Şuşa, Hadrut, Cəbrayıl, Kəlbəcər, Qubadlı və Laçın radio-televiziya yayım stansiyalarından radio yayımının aparılması üçün ərazinin diapazon üzrə tezlik toru araşdırılıb, istifadəyə yararlı boş olan tezliklərin siyahısı çıxarılıb, tələb olunan əhatə zonasını təmin edə biləcək radio-yayım vericilərinin gücləri hesablanıb və bütün ümumölkə radio-yayım proqramları üçün Şuşa və Hadrut radio-televiziya yayım stansiyalarından yayım üçün işçi tezliklər ayrılıb", - hesabatda deyilir.

# Hökm oxundu

## Eldəniz Səlimov 3 il 6 ay azadlıqdan məhrum edilib




**Sumqayıt Ağır Cinayətlər Məhkəməsində Milli Məclisin deputatı Eldəniz Səlimovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Hakim Hafiz Əliyevin sədrliyi ilə baş tutan prosesdə təqsirləndirilən şəxsə hökm oxunub.

Məhkəmənin hökmü ilə E.Səlimov 3 il 6 ay azadlıqdan məhrum edilib.

Qeyd edək ki, bu il iyulun 29-da Xaçmaz şəhərində yerləşən "Starıy Dvor" restoranında Milli Məclisin deputatı E.Səlimovun polis əməkdaşına xidməti vəzifələrinin icrası ilə əlaqədar zor tətbiq etməsi faktı ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə başlanılıb.

İstintaqla qeyd edilən tarixdə E.Səlimovun qohumuna məxsus olan restoranda Xaçmaz Rayon Polis Şöbəsinin Qeydiyyat və şəxsiyyət vəsiqəsi Qrupunun inspektoru, polis leytenantı Zaur Mirzəyevin bir neçə gün öncə öz xidməti vəzifəsini icra edərək həmin restoranda xüsusi karantin rejimi qaydalarının pozulması ilə əlaqədar etdiyi qanunamüvafiq hərəkətləri özünə hörmətsizlik kimi qiymətləndirərək Zaur Mirzəyevin ünvanına nalayiq ifadələr işlətməklə sonuncunun sifət və baş nahiyəsinə yumruq və başı ilə zərbələr vurmaqla sağlamlığa yüngül zərər vurmaya aid bədən xəsarətləri yetirməsinə əsaslı şübhələr müəyyən edilib.

E.Səlimov Cinayət Məcəlləsinin 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə təqsirləndirilir



# Bakının mesajı dəqiqdir, təhdidlərin qarşısı istənilən an alınacaq

## Ermənilər artıq anladılar ki, revanşist hisslərlə, planlarla yaşamağın heç bir perspektivi yoxdur

**Prezident İlham Əliyev 60 illik yubiley günündə ailəsi ilə birlikdə səfər etdiyi Hadrut qəsəbəsində növbəti dəfə Ermənistandakı revanşist qüvvələrə və onların havadarlarına sərt xəbərdarlıq edib. Hadrutda hərbi hissənin açılışında iştirak edən dövlət başçısı vurğulayıb ki, bu gün Ermənistan ordusu yoxdur.**

Ölkə rəhbəri bəyan edib ki, əgər Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaq: ”Biz heç vaxt imkan verə bilmərik ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hər hansı bir təhdid yaradılsın. Ölkə hüdudlarından kənarda olsa da, əgər bu təhdidi biz görsək, heç kim bizi dayandıra bilməz. Necə ki, 44 gün ərzində nə qədər bizi dayandırmağa çalışdılar, nə qədər bizi hədələdilər, təzyiq etdilər, təhdid etdilər. Heç kim bizi dayandıra bilmədi”. Prezident diqqətə çatdırıb ki, Hadrutdakı hərbi hissədə yeni hərbi birləşmənin nümayəndələri, komando qüvvələri yerləşir: ”Komando briqadasının yaradılması bizim üçün yenilikdir. Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bax bu briqadalarda xidmət edəcək. Bu, bizim ordu gücümüzü böyük dərəcədə artıracaq”.

**Dövlət başçısının mesajlarını dəyərləndirən Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə açıqlamasında deyib ki, Prezidentin fikirləri Ermənistan mediası və ictimaiyyətində ciddi təşviş doğurub.** Partiya rəhbəri qeyd edib ki, ermənilər bir daha əyani surətdə görür və anlayırlar ki, revanşist hisslər və planlarla yaşamağın heç bir perspektivi yoxdur: ”Rəsmi Bakı ölkənin ərazi bütövlüyünü təhdid edən risklərin qarşısını qətiyyətlə alacaq. Dövlət başçısı çıxışı zamanı qeyd etdi ki, Ermənistan yenidən bizim üçün təhlükə mənbəyi olmağa çalışarsa, onların sonu İkinci Qarabağ müharibəsindəki kimi olacaq. Soçi və Brüssel görüşlərindən sonra bir qədər ümidlənmiş bəzi ermənilərdə yenidən Hadrutu, Şuşanı geri almaq kimi sərsəm xəyallara birdəfəlik son qoymaq üçün Azərbaycan Prezidentinin belə bir tonda, belə bir qətiyyətlə ifadə olunan xəbərdarlığına həqiqətən də ciddi ehtiyac vardı. Üstəlik, bu xəbərdarlığın həm də məhz Hadrutda Komando tipli hərbi hissənin açılışı ilə müşayiət olunması qarşı tərəfə verilmiş kifayət qədər uğurlu və sərt mesaj idi. Xatırlayırsınızsa, ölkə rəhbəri İlham Əliyev bundan daha öncə də vurğulamışdı ki, Azərbaycan Ordusu Türkiyə ordusu təcrübəsinə əsaslanaraq daha da təkmilləşdiriləcək. Hadrutda sözügedən hərbi hissənin açılması cənab Prezidentin aylar öncə anons etdiyi hədəflərimizdən birinin öz təsdiqini tapmasıdır”.

**Ə.Hüseynov qeyd edib ki, bu istiqamətdə atılmış real addımlar artıq öz nəticəsini göstərir:** ”Bildiyiniz kimi Komando hərbi hissəsində xidmət aparan hər bir əsgərimiz qardaş Türkiyədə təlim keçib. Hadrut qəsəbəsində belə bir hərbi hissənin açılması düşmənə daha çevik surətdə cavab vermək, daha ağır zərbə vurmaq imkanı verəcək. Odur ki, erməni tərəfi nə revanşizmə can atmalı, nədəki terror və təxribat planlarını həyata keçirməyə cəhd göstərməlidir. Düşmən bilməlidir ki, Hadrutda Komando hərbi hissəsinin açılması nə Ermənistana, nədəki Xankəndidəki separatçılara bölgədə hər hansı bir terror, təxribat əməlləri üçün zərrə qədər də şans buraxmır. Bu elit hərbi hissə ərazilərimizin təhlükəsizliyinin təmin olunması üçün kifayət qədər peşəkarlığa və yüksək döyüş qabiliyyətinə malikdir. Ona görə də Ermənistan rəhbərliyi və separatçılar odla oynamaq niyyətlərindən birmənalı surətdə əl çəkməli, sülh mövqeyinə keçmək haqda düşünməlidirlər. Ölkə rəhbərinin çıxışı təkcə erməni revanşistlərinə deyil, onların havadarlarına, Ermənistandan və separatçılardan öz geosiyasi məqsədləri üçün alət kimi istifadə edən bəzi xarici güclərə də açıq mesajdır”.

**İsmayıl Qocayev**

# Tələbə-inşaat dəstələrinin yaradılmasını istəyiriksə, motivasiya olmalıdır

## Birdən-birə 10 min tələbəni Qarabağa göndərmək düzgün deyil

**Məlahət Rzayeva**



“Quruculuq işlərinə hər ali məktəbin tələbələrini deyil, mühəndis, inşaat, memarlıq və aqrar ixtisasların tələbələrini cəlb etmək olar”

**Qarabağda tələbə-inşaat dəstələri işləyəcək. Əgər millət vəkili Aqil Abbasın təklifi diqqətə alınıb qəbul edilərsə. Milli Məclisin dünənki toplantısında deputat Aqil Abbas tələbə-inşaat dəstələrinin yaradılması təklifiylə çıxış edib. Deputat deyib ki, Azərbaycan gəncləri gedib Qarabağda işləməlidirlər:**

”Bu, 10 minə qədər işçi qüvvəsi deməkdir. Azərbaycan gənci Qarabağda döyüşüb, qazi olub, şəhid olub. Bu gənclər indi də o tikinti işlərində iştirak edə bilər. Bütün tələbələr oraya könüllü gedib, o işlərdə iştirak edər. Onlar pul da istəməyəcəklər. Qarabağda müharibəyə gedənlər pulla gedirdilər?”. Millət vəkili qeyd edib ki, Ağdamda bu gün böyük işlər görülür, şəhər bərpa olunur. Bu işlər bütün Qarabağda görülür. Tələbə-gənclərin quruculuq işlərinə cəlb edilməsi bölgənin qısa zamanda dirçəldilməsinə dəstək olar.

Tələbə-inşaat dəstələri ötən əsrin sovet idarəetmə sistemində mövcud idi. Adətən yay aylarında semestr imtahanları başa çatdıqdan sonra ali məktəblərin tələbələrindən ibarət inşaat dəstələri təşkil edilirdi. Bu dəstələr müxtəlif rayonlarda inşaat, tikinti işlərinə cəlb edilirdilər. Bu, sovetizmin müsbət ənənələrindən sayıla bilər. Baxmayaraq ki, tələb-inşaat dəstələri ucuz işçi qüvvəsi idi və yerli orqanlar onlardan yarımçıq qalmış işlərin başa çatdırılmasında sui-istifadə edirdi, yenə də müsbət tərəfləri yox sayılmırdı. Tələbə gənclər əmək fəaliyyəti ilə məşğul olurdu, ictimai işlərdə iştirak etməklə sosiallaşırdılar. Bu ənənəni bərpa etmək indi tələbələrə nə vəd edir?

**Təhsil eksperti, Təhsil Xidmətləri Araşdırma Mərkəzinin rəhbəri, fəlsəfə doktoru Kamran Əsədov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, tələbə-inşaat dəstələrinin yaradılmasını istəyiriksə, motivasiya olmalıdır:**

- Dünya təcrübəsində tələbə həmişə ucuz işçi qüvvəsi hesab edilir. Hətta dünyanın ən reytinqli, məşhur ali təhsil müəssisələrində təhsil alan tələbələr də əlavə gəlir əldə etmək məqsədilə dərsdən kənar müddətdə haradasa işləməyə çalışırlar. Kafe, restoran, tikinti, idarələrdə kuryer, daşıyıcı, gözətçi və sair. Bunlar yüngül işlərdir, konkret iş saatı olmur deyə tələbələrə sərf edir. Dərsdən sonra əmək fəaliyyəti ilə məşğul olur, əvəzində əmək haqqı alır, müəyyən ehtiyaclarını qarşılayırlar. Bizdə də belədir. İşləyib əlavə gəlir əldə etmək istəyənlər iş axtarışına çıxır. Demək olmaz ki, hamı uyğun iş tapır, çünki iş yeri tapmaq da çətindir. Sovet vaxtı da tələbə-inşaat dəstələri vardı. Bütün SSRİ məkanında. Ölkəmizdə də həmçinin. Tələbə-inşaat dəstələrinin tərkibində bölgələrə gedirdilər və müəyyən işlərin icrasında yerli təşkilatlara kömək edirdilər. Onlara az da olsa, müəyyən ödənişlər edilirdi. Amma düşünürəm ki, millət vəkili Aqil müəllimin dediyi kimi, Qarabağda tikinti, inşaat işlərində iştirak etmək istəyənlər bunun müqabilində muzd istəməyəcək. Çünki hazırda Azərbaycan xalqı Qarabağın tez bir zamanda bərpa edilməsini, soydaşlarımızın yurdlarına tezliklə qayıtmasını, Qarabağda həyatın axarıyla davam etməsini arzulayır. Bunun üçün gənclərimiz yardım göstərməyə də hazırdır. Tələbə-inşaat dəstələrinin yaradılması müsbət təklifdir. Amma burada mütləq motivasiya olmalıdır. Hətta tələbə-gənclər təmənnasız çalışmaq istədiklərini bildirsələr belə. Motivasiya nədən ibarət ola bilər, məsələn, inşaat dəstəsində çalışdıqları müddət tələbələrə əmək fəaliyyəti, iş stajı kimi qeyd edilməlidir. Yaxud da əgər tələbə-gənclər hansısa özəl şirkətin işçi qüvvəsi olacaqsa, onlara normal əmək haqqı ödənməlidir. Yay aylarında, semestr imtahanları başa çatdıqdan sonra belə dəstələr yaratmaq olar. Amma tədris ili müddətində bunu həyata keçirmək çətin olacaq. Birincisi, tələbələr tədris proqramını mənimsəməli, tapşırıqları yerinə yetirməlidirlər. İki iş birlikdə mümkün olmaz. O zaman mümkün olar ki, ali məktəb Qarabağda olsun və tələbə asudə vaxtında əmək fəaliyyəti ilə məşğul olsun. Ali təhsil müəssisələrinin işğaldan azad edilmiş bölgələrdə tezliklə fəaliyyətə başlaması vacibdir. Bu həm bölgənin inkişafına kömək edər, həm də məskunlaşmaya dəstək olar. Bakıda məskunlaşma niyə fantastik həddə çatıb? Çünki ali məktəblər var və tələbələr təhsil almağa paytaxta gəlir. Bölgələrdə də ali məktəblər var. Amma mərkəz Bakıdır. Əgər işğaldan azad edilmiş bölgələrdə ali təhsil müəssisələri, həmçinin regional bölmələr, filiallar fəaliyyətə başlasa, həmin bölgədən olan tələbələr o təhsil müəssisələrində təhsil alar, bununla həm regionda məskunlaşma sürətlənər, həm də quruculuq işlərinin sürətli aparılması üçün əlavə işçi qüvvəsi əldə etmiş olarlar.

**K.Əsədov qeyd etdi ki, tələbə-inşaat dəstələri yaradılarsa, bura hər ali məktəbin tələbələri deyil, mühəndis, inşaat, memarlıq və aqrar ixtisaslar üzrə tələbələr cəlb edilməlidir:**

- Bu, nəzəri biliklərə yiyələnən tələbə üçün təcrübə meydanı olacaq. Nəzəri biliklərini tətbiq edə biləcəklər. Birdən-birə 10 min tələbəni Qarabağa göndərmək də düzgün olmaz. Bunun təhlükəsizlik, nəzarət, idarəetmə, yerləşdirmə, təminat məsələsi də var.




# Məktəblərdə kişi müəllimlərin sayı çox azdır

**Dünən Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. Gündəliyin təsdiqindən sonra cari məsələlərin müzakirəsinə başlanıb. Cari məsələlərlə bağlı çıxış edən deputatlar bəzi aktual məsələlərə dair fikirlərini səsləndiriblər, təkliflərini irəli sürüblər. Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlanıb.**

**“Azərbaycan gəncləri Qarabağda işləməlidir”**

**Millət vəkili Aqil Abbas Qarabağda tələbə-inşaat dəstələri yaradılmasını təklif edib. Deputat deyib ki, Azərbaycan gəncləri gedib Qarabağda işləməlidir:** ”Bu, 10 minə qədər işçi qüvvəsi deməkdir. Azərbaycan gənci Qarabağda döyüşüb, qazi olub, şəhid olub. Bu gənclər indi də o tikinti işlərində iştirak edə bilərlər. Bütün tələbələr oraya könüllü gedib, o işlərdə iştirak edə bilər. Onlar pul da istəməyəcəklər. Qarabağda müharibəyə gedənlər pulla gedirdilər?”.

**“Gənclər arasında narkomaniya geniş yayılıb”**

**Millət vəkili Siyavuş Novruzov gənclər arasında narkomaniyanın geniş yayıldığını deyib.** Deputat bildirib ki, dekabrın 23-də polis narkotik satan, yaşı 30-dan aşağı olan 33 gənci saxlayıb: ”Bu, tək bir günün statistikasıdır. DİN-in, Gömrük Komitəsinin statistikaları var. Biz hamılıqla buna qarşı mübarizə aparmalıyıq. Gənclərin düzgün tərbiyə olunmasına çalışmalıyıq. Ailə problemlərinin çox hissəsi də burdan başlayır”.

**“Gənclərin yaxşı vətəndaş kimi formalaşması orta məktəbdən başlayır”**

**Deputat Məlahət İbrahimqızı məktəblərdə qadın müəllimlərin çoxluğundan narahatlığını ifadə edib.** Onun sözlərinə görə, bu gün orta məktəblərdə müəllimlərin mütləq əksəriyyəti qadındır: ”Kişilərin təhsildə üstünlük təşkil etməsi üçün komitə tərəfindən hansı işlər görüldüyü açıqlansa, yaxşı olar. Çünki gənclərin yaxşı vətəndaş kimi formalaşması orta məktəbdən başlayır. Digər məsələ erkən nikahlarla bağlıdır. Xüsusilə Bakının bəzi kəndlərində və bəzi rayonlarda bu problem daha aktualdır. Bunun üçün komitə tərəfindən ayrıca fəaliyyət həyata keçirilməlidir. Bu edilir, ya yox, bilmək istəyərdik”.

**“Erkən nikah, təhsildən yayınma, narkomaniya cənub bölgəsində daha geniş yayılmaqdadır”**

**Millət vəkili Elman Nəsirov qeyd edib ki, Azərbaycanda cənub bölgəsində ən çox narahatedici məsələ erkən nikahlarla bağlıdır:** ”Cənub bölgəsində bəzi valideynlər 9-cu sinifdən sonra uşaqlarının təhsilini davam etdirməsində maraqlı olmur. Başqa regionlarla müqayisədə, cənub bölgəsində erkən nikah, qızların təhsildən yayınma halları daha çoxdur. Bahar xanımdan xahiş edirəm o statistika varsa, təqdim etsin. Burada həyəcan təbili çalmaq istəyirəm ki, cənub bölgəsində erkən nikahlar məsələsində vəziyyət çox pisdir. Eyni zamanda narkomaniya ilə bağlı məsələdə də vəziyyət ürəkaçan deyil. Erkən nikah, təhsildən yayınma, narkomaniya cənub bölgəsində daha geniş yayılmaqdadır. Həyəcan təbili çalıram və xahiş edirəm ki, aidiyyəti qurumlar bu məsələdə fəaliyyəti gücləndirsinlər”.

**İsmayıl Qocayev**

# Proses yekun sülh sazişinə doğru gedir

## Paşinyan Bakının gündəliyinə yaxın mövqedən çıxış edir

**İsmayıl Qocayev**



**Ermənistan Baş naziri Nikol Paşinyanın Qarabağın statusu ilə bağlı fikirləri ölkədə ciddi ajiotaja səbəb olub. Paşinyan hökumətin iclasında vurğulayıb ki, Qarabağın son statusunun dəqiqləşdirilməsi Azərbaycan konstitusiyası əsasında baş verməlidir.**

Baş nazirin sözlərinə görə, bu imkanı rəsmi Bakıya onun sələfləri yaradıb. Paşinyan vurğulayıb ki, Qarabağ münaqişəsi üzrə danışıqlar prosesi əzəldən erməni tərəfinin ”xeyrinə” getməyib. Onun sözlərinə görə, Qarabağ tənzimlənməsi ilə bağlı ATƏT-in Minsk qrupu həmsədrlərinin hələ 2016-cı ildə irəli sürdüyü təkliflər erməni tərəfi üçün ”faciəvi” olub. Ekspertlərin fikrincə, Paşinyan bu açıqlaması ilə Qarabağ məsələsinin İrəvan üçün prioritet olmayacağının mesajını verir. Onların sözlərinə görə, Ermənistan Qarabağ iddiasından əl çəkərsə, Azərbaycan bu məsələni birbaşa Rusiya ilə uzlaşdıracaq.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Nikol Paşinyanın son müsahibəsi Qarabağ və regional proseslər baxımından ciddi açıqlamalarla yadda qaldı.** Ekspertin yanaşmasına görə, Paşinyanın əvvəlki çıxışları ilə müqayisədə yeni fikirlər səsləndirməsi və müəyyən iddialardan imtina etməsi önəmli nüanslardır: ”Paşinyan 2016-cı ilin ”aprel müharibəsi”ni xatırladır və mesaj verir ki, ”status” məsələsinin ”dəfn edilməsi” onun yox, keçmiş hakimiyyətin günahıdır. BMT Təhlükəsizlik Şurası Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. O vaxtdan ATƏT-in Minsk qrupu həm də regionun statusu məsələsi ilə məşğul olub. Lakin 2016-cı ildə status məsələsi yenidən BMT TŞ-yə qaytarıldı və bu, Ermənistan üçün ”fəlakət”lə nəticələndi. Çünki ən mötəbər beynəlxalq platforma çərçivəsində Qarabağın statusuna ümid etmək mümkün deyil. Əgər Minsk qrupu platformasında Ermənistanın Qarabağa ”xüsusi status” iddia etmək şansı var idisə, Təhlükəsizlik Şurasında bu, mümkünsüzdür. Qarabağda yaşayan azərbaycanlıların hüquqları heç vaxt mübahisəli olmayıb, olmayacaq da. ”Dağlıq Qarabağ Muxtar Vilayəti” danışıqlar prosesində heç vaxt sırf erməni birliyi kimi nəzərdən keçirilməyib. Ən azından erməni-azərbaycanlı icması olaraq qəbul edilib. Yəni bölgənin müqəddəratını yalnız azərbaycanlı sakinlərin iştirakı ilə həll etmək olar. ”Kazan düsturu” Azərbaycanın razılaşmadığı ”aralıq statusu” məsələsini nəzərdə tuturdu. 2016-cı ilin yanvarında isə vasitəçilərin yeni sənədlər paketində ”Qarabağın aralıq statusu” ifadəsi yox idi. Erməni tərəfi bununla razılaşmadı və nəticədə ”aprel müharibəsi” baş verdi. 2016-cı ilin avqustunda yeni sənədlər paketi peyda olur və ”Qarabağın statusu” BMT Təhlükəsizlik Şurasına qaytarılır. Paşinyan baş verənlərə görə keçmiş hakimiyyəti ittiham edir. Bildirir ki, əgər o vaxt Qarabağın statussuz vəziyyəti ilə danışıqlar prosesinə razılıq verilsəydi, vəziyyət bu həddə çatmazdı. Məhz buna görə indi ”statusun” Azərbaycan Konstituasiyana uyğun həlli vəziyyəti yaranıb.

Erməni baş nazir bununla bəyan edir ki, ”statusun” olmayacağı ilə razılaşmağa məcburdurlar. Digər yandan erməni cəmiyyətinə ”Minsk qrupu formatında ”status”un gündəmdə qalmasına çalışacağını” vəd etsə də, ciddi nəticə gözləməməyin mesajını verir”.

**A.Nərimanlı vurğulayıb ki, ümumən proseslərin yekun sülh sazişinə doğru getdiyi müşahidə edilir:** ”Paşinyan da bildirir ki, ”Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamağa hazırdır”. Baş nazir sülh müqaviləsində Bakının gündəliyinə yaxın mövqedən çıxış edir. İstisna deyil ki, Sankt-Peterburqda gözlənilən Azərbaycan-Ermənistan rəhbərlərinin görüşündə sülh müqaviləsi də müzakirə olunacaq”.




# Qəzetlər və onlayn media üçün müsabiqə elan edilib

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi (MEDİA) çap mediası subyektlərinə dəstək layihəsi elan edib.**

MEDİA-dan verilən məlumata görə, müsabiqə ictimai-siyasi qəzetlər arasında keçirilir.

Müsabiqədə iştirak üçün ictimai-siyasi qəzetlər:

- müsabiqə elan olunan günədək son 1 (bir) il ərzində müntəzəm nəşr olunmalı, dövriliyi həftədə bir dəfədən, birdəfəlik tirajı 1500 nüsxədən və yayımı (abunə və satışı) 1000 nüsxədən az olmamalıdır;

- redaksiyasının yaradıcı heyəti ən azı beş nəfərdən ibarət olmalıdır.

- Qəzetin müsabiqə elan olunan günədək son 3 (üç) aylıq dövr ərzində hər ay üzrə 2 (iki) nömrə olmaqla, ümumilikdə 6 (altı) nömrəsi müsabiqəyə təqdim edilməlidir.

Müsabiqəyə müraciət nəzərdə tutulmuş sənədlərin ".pdf" yaxud ".jpeg" versiyasının (skan edilmiş surəti və ya fotoşəkli) "Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı"na daxil edilməsi yolu ilə edilir.

- Qəzet nömrələrinin qiymətləndirilməsi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən cəlb edilmiş 3 müstəqil ekspert tərəfindən həyata keçirilir.

- Həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5000 (beş min) manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə isə aylıq 15000 (on beş) min manat məbləğində maliyyə yardımı göstərilir;

- Müsabiqədə qalib elan olunan hər bir qəzet redaksiyasının eyniadlı vebsaytına aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir.

Maliyyə yardımı göstərilən dövr ərzində qəzetin eyniadlı veb-saytının işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə vebsaytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilməlidir.

Maliyyə yardımı göstərilən ay üzrə qəzetin yalnız fiziki şəxslərdən ibarət hər əlavə 500 (beş yüz) abunəsi üçün aylıq 200 (iki yüz) manat, hər əlavə 1000 (bir min) abunəsi üçün isə aylıq 400 (dörd yüz) manat məbləğində bonusun verilməsi nəzərdə tutulur;

Müsabiqə qaliblərinə maliyyə yardımının göstərilməsi 2022-ci il yanvar ayının 1-dən etibarən 6 aylıq dövrü əhatə edir.

Müraciətlərin qəbulu 07 yanvar 2022-ci il saat 18:00-dək həyata keçirilir.

**Medianın İnkişafı Agentliyi (MEDİA) onlayn media subyektlərinə dəstək layihəsi də elan edib.**

Müsabiqəyə ictimai-siyasi və idman məzmunlu kütləvi informasiya dərc edən onlayn media subyektləri (veb-saytlar) müraciət edə bilərlər.

- veb-saytın google analytics hesabına yazılı giriş icazəsi təqdim olunmalıdır.

Tələb edilən digər sənədlər barədə ətraflı məlumatı Agentliyin rəsmi internet saytından əldə edə bilərsiniz.

Müsabiqəyə müraciət tələb olunan sənədlərin ".pdf" yaxud ".jpeg" versiyasının (skan edilmiş surəti və ya fotoşəkli) "Medianın inkişafına dəstək layihələri üzrə elektron informasiya bankı"na daxil edilməsi yolu ilə edilir.

Qiymətləndirmə əsas ümumi domen üzərindən və onlayn media subyektinin (veb-saytın) müsabiqəyə müraciət etdiyi günədək son 3 (üç) aylıq dövr ərzində hər ay üzrə ən yuxarı göstəricili 2 (iki) məqaləsi, həmçinin veb-saytın dizaynı üzrə aparılır.

Ən yuxarı göstəricili 2 (iki) məqalənin, həmçinin veb-saytın dizaynının qiymətləndirilməsi Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən cəlb edilmiş 3 müstəqil ekspert tərəfindən həyata keçirilir.

*Maliyyə yardımının göstərilməsi:*

- Agentlik tərəfindən maliyyələşdirilən onlayn media subyektlərinin (veb-saytların) hər birinə aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir;

*Maliyyə yardımından istifadə:*

- Maliyyə yardımı göstərilən dövr ərzində onlayn media subyektinin (veb-saytın) müvafiq sayda işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə veb-saytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilmədir;

Müsabiqə qaliblərinə maliyyə yardımının göstərilməsi 2022-ci il yanvar ayının 1-dən etibarən 6 aylıq dövrü əhatə edir.

Müraciətlərin qəbulu 07 yanvar 2022-ci il saat 18:00-dək həyata keçirilir.

## Əhməd İsmayılov: "Media haqqında qanun layihəsi ilə bağlı müzakirələrin yaxın zamanlarda tamamlanması gözlənilir"




**Media haqqında qanun layihəsi ilə bağlı görüşlər davam edir.**

Trend-in məlumatına görə, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov deyib.

O bildirib ki, qanun layihəsi ilə bağlı müxtəlif müzakirələr aparılır.

"QHT-lərlə, media ekspertləri ilə görüşürük, müzakirələr aparırıq. Aydınlıq gətirilməli olan məqamlara, suallara cavab veririk. Düşünürük ki, yaxın zamanlarda işlər tamamlanacaq və yekun olaraq layihə 3-cü oxunuş üçün təqdim ediləcək," - deyə Ə.İsmayılov bildirib.

# "Mən niyə yaltaqlıq etməliyəm ki?"

Tahir Kərimli: "Tək istəyiniz odur ki, biz də sizin kimi rəhbərliyi söyək. Siz onu görməyəcəksiniz"

**"Fransa parlamentinin qarşısında 3 azərbaycanlı çıxıb Milli Məclisi ittiham edir". Bunu Milli Məclisin dünənki iclasında deputat Tahir Kərimli deyib. Millət vəkili bildirib ki, həmin şəxslər büdcədən Milli Məclisə 100 milyon pul ayrıldığını, onun 90 milyonunun mənimsənildiyini iddia edirlər:**



"Bunun belə olmadığını biz bilirik. Hətta biz Qarabağ naminə ehtiyacı olan insanlar üçün ev tikilməsi məsələsindən də imtina etdik. Sosial şəbəkələrdə deyirdilər ki, Tahir Kərimli yaltaqlıq edib. Mən niyə yaltaqlıq etməliyəm ki?! 2000-ci ildə boykot elan edəndən sonra gedib ağalarınızla danışdınız, gəldiniz Milli Məclisdə təmsil olundunuz. İnhisarçılıq sizin dövrünüzdə yaranıb. Biz Milli Məclisdə oturub xalqın bütün problemlərini dilə gətiririk. Siz 10-15 il oturub parlamentdə hansı məsələni qaldırmısınız? Epizodik çıxışlardan başqa hansı çıxışınız var? Tək istəyiniz odur ki, biz də sizin kimi rəhbərliyi söyək. Siz onu görməyəcəksiniz. Biz islahat istəyirik. İslahatın tərəfdarıyıq. İnhisarçılar sizin dövrünüzdə yaranıb, onları biz yaratmamışıq. 22 il işsiz qaldım, evimə əməkhaqqı gəlmədi. Sizsə gəlib burda iqtidara yaxın oldunuz. Siz kimsiniz, özünüzü Heydər Əliyevin oğlu ilə müqayisə edəsiniz? Miskin, cılız adamlarsız. İnsanların söyüşkən xasiyyətinə məəttələm. Rüşvətxorluğun, inhisarçılığın qarşısını almaq üçün Prezidentə müraciət edirik. Başqa kim bunun qarşısını ala bilər? Yaltaqlığa nə ehtiyacımız var? Özümüz üçün, övladımız üçün heç nə ummuruq".

**İsmayıl**



# Yeni səhifə açılır

İranla Azərbaycan arasında gərginlik bitib

**Sənan İsmayıl**

**"Sirr deyil ki, bir neçə ay bundan öncə İranla Azərbaycan arasındakı münasibətlərdə bəlli gərginlik yaşanıb. Yaxşı xəbər ondan ibarətdir ki, bu gərginlik qısa çəkib. Arada bəlli bir anlaşılmazlıq olub. Həmkarımla görüş zamanı bu anlaşılmazlığın aradan qaldırılması münasibətin inkişafı olub".**

Bu sözləri Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov XİN-in 2021-ci il üzrə hesabatının təqdimatında söyləyib.

**XİN başçısının İranla bağlı çıxışını "Şərq"ə şərh edən politoloq Rusif Məmmədsoy nazirin sözlərinə haqq qazandıraraq bildirib ki, Azərbaycanla İran münasibətlərində gərginlik situativ xarakter daşıyırdı.**

"İranla gərginliyimiz həqiqətən də bitdi və diplomatik müstəvidə müəyyən uğurlarımız var. Biz bunu Aşqabad görüşündə xüsusilə izlədik və gördük. İbrahim Rəisi müəyyən mənada prosesdən məmnun olmasa da reallıqla barışmaq məcburiyyətindədir. Burada Türkiyə faktorunu da mütləq qeyd etməliyik. Aşqabad görüşündə müəyyən anlaşmalar imzalandı. Hansı ki, bu anlaşmalardan İran özü də qazanclı çıxacaq. Türkmən qazının İran üzərindən Azərbaycana ötürülməsi, buradan da Avropaya daşınması İranı tranzit ölkə kimi müəyyən maliyyə gəlirini artıracağına inandıra bildi. Bu mənada sanksiyalara məruz qalan İran da proseslərdən narazı qala bilməz.

İran artıq Ermənistanla münasibətlərində müəyyən mənada bununla razılaşmaq istəməsə də, artıq başa düşür ki, regional faktlarla hesablaşmalıdır, reallıqlarla barışmalıdır. Və biz həqiqətən də onları bu reallıqla barışdıra bildik. Hüseyn Əmir Abdullahianın da Bakıya səfəri, Şəhidlər Xiyabanını ziyarəti və s. bu iki ölkə arasındakı münasibətlərin normallaşmasına istiqamətlənmiş addımlardır.

**Rusif Məmmədsoy həmçinin qeyd edib ki, hazırda iki ölkə arasında bir çox fikir ayrılıqları var:**

"Ancaq istənilən halda regionda məqsədlər, hədəflər dəyişib. İran reallıqla barışıb. Yenə qeyd edirəm, bu məsələdə Türkiyə faktorunu gözardı etmək olmaz. Türkiyə bu məsələdə bizim yanımızda oldu və İrana da izah elədi ki, əgər sən bu əməllərindən əl çəkməsən, artıq qarşında sadəcə Azərbaycanı yox, Türkiyəni də görəcəksən. R.T.Ərdoğan açıq şəkildə Afrika səfərindən sonra jurnalistlərə açıqlamasında ilk bu məsələyə toxundu. Və bu da çox vacib idi. İbrahim Rəisi də Aşqabad görüşündə həm cəbhədə baş verən prosesləri, həm də digər problemləri məhz Ruhaninin üzərinə atdı. Bu, əslində səhv addım idi. Çünki bu proseslər İbrahim Rəisinin vaxtında olmuşdu. Yəni bu mənada artıq reallıqla barışıb. Hesab edirəm ki, bu situativ gərginlik geridə qaldı və Azərbaycan-İran münasibətlərində yeni bir səhifə açılır".

# Qarşılıqlı etimad mühiti yaradılır

Tanınmış xadimlərin, ziyalıların topluma təsir imkanları böyükdür

**İsmayıl Qocayev**

**Məlumdur ki, dekabrın 23-24-də Moskva şəhərində Azərbaycan və Ermənistan ictimaiyyətinin nümayəndələri arasında görüş keçirilib. Təmas Rusiya prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyun təşəbbüsü və iştirakı ilə baş tutub.**

Görüşdə iki xalq arasında gərginliyi azaltmaq istiqamətində atılacaq addımlar müzakirə edilib. Rusiya paytaxtında keçirilən görüşdə Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla, kinorejissor Ayaz Salayev və Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova iştirak ediblər. Analoji görüşün gələn ilin əvvəlində də keçirilməsinə dair razılıq əldə edilib. Xatırladaq ki, bu ilin oktyabr-noyabr aylarında da Azərbaycan-Ermənistan nümayəndələri arasında təmaslar reallaşıb. İlk təmas Avropa Birliyinin təşəbbüsü ilə Azərbaycan və Ermənistanın siyasi ekspertlərinin, vətəndaş cəmiyyəti nümayəndələrinin bir araya gəlməsi ilə baş tutub. Gürcüstanın Kaçreti bölgəsində keçirilən görüşdə Azərbaycan tərəfdən Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri, politoloq Eldar Namazov və "Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev, Ermənistan tərəfdən isə siyasi ekspert Stepan Qriqoryan, akademik Aleksandr Manasyan və digərləri iştirak ediblər. Daha sonra Avstriyanın paytaxtı Vyanada Azərbaycan və Ermənistan nümayəndələri bir araya gəliblər. Görüşdə siyasi partiyaların üzvləri və deputatlar iştirak ediblər. Avstriya hökuməti və ekspert cəmeəsi tərəfindən təşkil edilən görüşdə müharibədən sonrakı dövrdə nizamlanma məsələləri müzakirə olunub.




Azərbaycan-Ermənistan ictimaiyyət nümayəndələrinin görüşü sülh müqaviləsinin imzalanmasına ciddi əsaslar yaradır

**Azərbaycan və Ermənistanın ictimaiyyət nümayəndələri arasında keçirilən görüşlərlə bağlı "Şərq"ə danışan millət vəkili Elman Nəsirov deyib ki, torpaqlarımız işğal altında olarkən "xalq diplomatiyası" adı altında keçirilən görüşlər, təmaslar uğursuz olub.** Çünki Ermənistanın ozamankı rəhbərliyi münaqişənin həllində qətiyyən maraqlı deyildi: "İndi tamam başqa vəziyyət formalaşıb. Artıq öz torpaqlarımızın sahibiyik. Bölgədə formalaşan yeni reallıqlar Azərbaycan-Ermənistan arasında "xalq diplomatiyası"nın elementlərinin tətbiqini zəruri edir. Rəsmi Bakının qarşısında duran mühüm vəzifələrdən savaşla bərabər sonra sülhü də qazanmaqdır. Sülhün yaranması prosesində ictimaiyyət nümayəndələrinin təması önəmli rol oynayır. Noyabrın 26-da Soçidə keçirilən üçtərəfli danışıqlarda bu istiqamətdə müəyyən razılaşmalar oldu. Razılaşmalardan biri demarkasiya və delimitasiya, digəri nəqliyyat kommunikasiya xətlərinin bərpası, üçüncüsü isə humanitar məsələlərlə bağlı idi. İki xalq arasında etimad mühiti formalaşmalıdır. Etimad mühitini yaratmaq üçün isə bu cür təmaslar vacibdir. Xatırladım ki, torpaqlarımız işğal altında olarkən Ermənistan nümayəndə heyəti Bakıya gəlmişdi. Ermənilər görüşdən geri qayıtdıqdan sonra burada gördükləri müsbət yeniliklərdən danışmağa başladılar. Nəticədə Ermənistanın siyasi rəhbərliyi təmasların qarşısını aldı və sonrakı görüşlərin keçirilməsinə imkan vermədi. Ancaq indiki Ermənistan rəhbərliyi bu prosesin qarşısını almaqda maraqlı deyil. Əksinə, post-münaqişə dövründə real addımların atılmasının tərəfdarı kimi çıxış etməkdədir. Paşinyan başa düşür ki, iki xalqın ziyalıları arasında keçirilən görüşlər revanşistlərin mövqeyini zəiflədə bilər. Tanınmış xadimlərin, ziyalıların toplumdakı ictimai rəyə təsir imkanları böyükdür".

*Parlament üzvü vurğulayıb ki, iki tərəf də anlayır ki, bu cür təmasları dərinləşdirmək lazımdır:* "Azərbaycan-Ermənistan müdafiə nazirlikləri arasında birbaşa təmaslar mövcuddur. Hava məkanları qarşılıqlı şəkildə açılıb. Türkiyə-Ermənistan münasibətlərinin normallaşması üçün xüsusi nümayəndələr təyin olunub. Bütün bunlar etimad mühitinin formalaşması ilə bağlı münbit şərait yaradır. Sülh müqaviləsinin imzalanması yönündə ciddi əsaslar yaradır. Danışıqların alternativi müharibədir və növbəti savaş Ermənistanın sonu deməkdir".

# Araik Arutyunyan Paşinyana müharibə elan etdi



## “Güvəndiyi Kremldir, ancaq separatçıya görə Moskva Bakı ilə qarşı-qarşıya gəlməyəcək”

**Qarabağdakı separatçı-terrorçuların rəhbəri Araik Arutyunyan Nikol Paşinyanın ”status Azərbaycan Konstitusiyasına uyğun həll edilməlidir” açıqlamasına etiraz edib.**

Terrorçu deyib ki, ”Azərbaycanın tərkibində yaşamayacaqlar, onların maraqları ticarət obyekti deyil”. Ekspertlərin fikrincə, bu, müharibədən sonra separatçılarla İrəvanın açıq müstəvidə ilk qarşıdurmasıdır. Separatçı-terrorçu rejim Rusiya sülhməramlılarına bel bağlayır, amma bölgədəki erməni əhalisi üçün əsas dayaq nöqtəsi həmişə Ermənistan olub. Ona görə də İrəvanın ”qarant rolunun” sıradan çıxması ermənilərin seçimini - ya Azərbaycan idarəçiliyi altında yaşamaq, ya da köçmək prosesini sürətləndirə bilər.

**İrəvanla separatçılar arasındakı qarşıdurmanı ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Turan Rzayev deyib ki, Ermənistan rəhbərliyi ilə Qarabağdakı terrorçu rejimin liderləri arasında həmişə müəyyən narazılıqlar olub. Analitikə görə, yeganə fərq onda idi ki, Araik Arutyunyanla Nikol Paşinyanın münasibətləri başqaları ilə müqayisədə xeyli yaxın görünürdü:** ”Misal üçün, Paşinyan hakimiyyətinin ilk illərində tez-tez Qarabağa qanunsuz səfər edir, separatçı lider Araik Arutyunyana inaqurasiya mərasimi keçirir, Şuşada yeni parlament binası açmaq istəyirdi. Araik Arutyunyan da öz növbəsində bu il Ermənistanda keçirilən parlament seçkiləri zamanı məntəqələrin birində Paşinyanın tərəfdarı kimi fəaliyyət göstərmişdi. Bütün bunları nəzərə alsaq, məntiqi bir sual meydana çıxır: Araik Arutyunyan Nikol Paşinyana faktiki müharibə elan etməklə hansı gücə arxalanır? Hesab edirəm, Araik bu məsələdə Kremlə güvənir. Lakin Moskvanın separatçılara görə rəsmi Bakı ilə qarşı-qarşıya gələcəyini düşünmürəm. İndiki halda Rusiyanın Azərbaycandan məmnun olduğunu demək olar. Hətta rəsmi İrəvanın əksinə son proseslərdə Bakı özünün nə qədər yaxşı və etibarlı tərəfdaş olduğunu bir daha sübut etdi. Bu mənada Araikin güvəndiyi Rusiya onu uzun müddət Bakının qəzəbindən xilas edə bilməyəcək. Digər tərəfdən, Rusiya faktoru hər nə qədər olsa da separatçılar üçün əsas dəstək həmişə Ermənistan olub. Ermənistan isə bu gün bu dəstəkdən imtina edir”.

**"Azərbaycan artıq dolayısı ilə deyil, birbaşa Xankəndi problemini həll etmək üçün aktiv diplomatik siyasətə başlayıb"**

*T.Rzayev vurğulayıb ki, hazırda yeni situasiya yaranır. Azərbaycan artıq dolayısı ilə deyil, birbaşa Xankəndi problemini həll etmək üçün aktiv diplomatik siyasətə başlayıb:* ”Rəsmi Bakı üçün ideal fürsət yaranıb və bu fürsətdən istifadə etmək lazımdır. Sankt-Peterburqda gözlənilən görüşdə sülh müqaviləsinin müzakirə olunacağı ehtimalı böyükdür. Gec-tez Qarabağda anti-terror əməliyyatının başlayacağına da şübhə yoxdur. Bu əməliyyatların məqsədi mülki ermənilər deyil, qanunsuz silahlı dəstələrin məhvi, Azərbaycanın ərazi bütövlüyünün tam təmin edilməsidir. Araikin son sözləri də faktiki olaraq antiterror əməliyyatına başlaması üçün Bakıya əsas verir”.

**İsmayıl Qocayev**



**”Rusiya sülhməramlı qüvvələrinin Qarabağda fəaliyyəti Azərbaycanın təhlükəsizliyini və suverenliyini təhdid edəcək mərhələyə keçib”.**

*Bunu ”Şərq”ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.*

# Rus sülhməramlıları Azərbaycana qanunsuz səfərləri əngəlləmir

## Azərbaycan Rusiya ilə bu məsələni ciddi şəkildə müzakirə etməlidir

*Ekspert bildirib ki, ilk növbədə Rusiya sülhməramlıları xarici vətəndaşların Laçın dəhlizindən Azərbaycan ərazisinə daxil olmasının qarşısını birdəfəlik almalıdır:* ”Sülhməramlılar qanunsuz səfərlərin nəinki qarşısını alır, hətta Fransanın prezidentliyə namizədin Azərbaycan ərazisinə keçməsinə şərait yaradır. Bu, Azərbaycana qarşı separatizmə dəstək verməkdir və burada sülhməramlı qüvvələrinin rolu daha da qabarıqdır. Azərbaycan Laçın dəhlizində mütləq post qurmalıdır. Prezidentliyə namizədin Laçın dəhlizindən keçib Xankəndinə gəlməsi birbaşa Moskvanın razılığı ilə həyata keçirilib. Çünki bu, sıradan səfər deyil. Rusiya Müdafiə Nazirliyinin icazəsi və siyasi təlimatı olmasa, belə bir səfər reallaşmazdı. Azərbaycan Rusiya ilə bu məsələni ciddi şəkildə müzakirə etməlidir”.

**Analitik qeyd edib ki, Rusiya çalışır ki, Qarabağda ermənilər subyekt kimi tanınsın:** ”Azərbaycanın razılığı olmadan reallaşan səfərlər və Rusiya hərbçilərinin buna şərait yaratması göstərir ki, sülhməramlı qüvvələrin Qarabağdan çıxarılması üçün 4 ildən sonra hərəkətə keçməliyik. Azərbaycan Ermənistandan da belə səfərlərin təşkilinə son verilməməsini tələb etməlidir. Bu cür hallar normallaşma prosesinə kölgə salır”.

**İsmayıl**



# İplər əlimizdədir...

## Paşinyanın yeganə ümidi Bakı ilə Ankaradır

**Türkiyə prezidentinin sözçüsü İbrahim Kalın ABŞ-da yaşayan Türkiyə vətəndaşları ilə görüşdə Cənubi Qafqazda gedən proseslərdən və Ankara-İrəvan münasibətləri yönündə atılan addımlardan danışıb.**

Kalın vurğulayıb ki, ABŞ-dakı erməni lobbisi antitürkiyə əhval-ruhiyyəni öz kimliyinin bir hissəsinə çevirib: ”Ancaq indi erməni diasporunun bütün gücü, arqumentlərini üzərində qurduğu struktur dağılmaq üzrədir. Qafqazda Türkiyə-Ermənistan və ya türk-erməni münaqişəsi başa çatmaq üzrədir. Qarabağın işğaldan azad edilməsi və Azərbaycanın öz torpaqlarını qaytarması ilə orada tarixin yeni səhifəsi açılıb”. Türkiyə rəsmisi qeyd edib ki, Ermənistanla qarşılıqlı münasibətlərin normallaşması istiqamətində ciddi addımlar atılır: ”Normallaşma prosesindən ən çox Ermənistan qazanacaq. Dənizlərə çıxışı olmayan, iqtisadi cəhətdən zəif olan Ermənistanın Türkiyə ilə münasibətləri normallaşdırması həm siyasi, həm də iqtisadi baxımdan bu ölkəyə böyük töhfə verəcək”. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu xüsusi nümayəndələrin ilk görüşünün Moskvada baş tutacağını söyləyib. Çavuşoğlu İstanbul-İrəvan aviareyslərinin də qısa müddət ərzində başlayacağının anonsunu verib. Nazir Türkiyənin Ermənistanla sərhədləri açması məsələsinə də toxunub: ”Hər mövzuda Azərbaycanla məsləhətləşərək qərar veririk. Əgər istədiyimiz nöqtəyə gəlsək, sərhədlər açıla bilər. Sərhədlərin təyin edilməsi və normal münasibətlərin qurulması bizim də arzumuzdur”.

**Ermənistanla əlaqələrin normallaşması prosesini şərh edən ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu hesab edir ki, erməni lobbisi ilə yanaşı, radikal müxalifət, o cümlədən ”Qarabağ klanı” və Qarabağdakı separatçılar bu məsələdə Paşinyana qarşı birləşəcək.**

**“Əgər baş nazir sözdə və əməldə eyni siyasəti yürüdərsə, "Qarabağ Azərbaycana aiddir" deməkdə davam edərsə, onun radikallardan qorunması ilə bağlı müvafiq addımlar atmaq məcburiyyətində qalacağıq”**

Analitikin sözlərinə görə, Paşinyan ümid edir ki, Azərbaycan və Türkiyə ilə kommunikasiya xətlərini açmaqla, müəyyən sazişlər imzalamaqla Ermənistanı indiki ağır siyasi, iqtisadi və sosial vəziyyətdən çıxaracaq: ”Yəni Paşinyanın yeganə ümidi Bakı ilə Ankaradır. Deməli, iplər bizim əlimizdədir. Əgər Paşinyan sözdə və əməldə eyni siyasəti yürüdərsə, ”Qarabağ Azərbaycana aiddir” deməkdə davam edərsə, onun radikallardan qorunması ilə bağlı müvafiq addımlar atmaq məcburiyyətində qalacağıq. Türkiyə Prezident Administrasiyasının sözçüsü İbrahim Kalın da qeyd edib ki, Ermənistanla əlaqələrin normallaşması üçün qarşılıqlı addımlar atılır. Türkiyə rəsmisi normallaşmanın ən çox Ermənistanın xeyrinə olacağını vurğulayıb. Söyləyib ki, dənizə çıxışı olmayan, iqtisadi cəhətdən zəif və Rusiyanın təsiri altında olan Ermənistanın Türkiyə ilə əlaqələri normallaşdırmasının həm siyasi, həm də iqtisadi faydaları olacaq. Ankara Bakı ilə birgə səylərlə Ermənistanı təxribatçı siyasətinə son qoymasına çalışır. Görünən odur ki, Ermənistanın hazırkı hökuməti Bakı və Ankara ilə dialoqa hazırdır. Bu dialoqdan istifadə edərək Ermənistanı Azərbaycanın və Türkiyənin ərazi bütövlüyünü tanımağa məcbur etmək lazımdır. Bu reallaşarsa, digər problemləri də həll etmək mümkün olacaq”.

**İsmayıl Qocayev**

# Qərb bir az da dirəniş göstərsə Rusiya dayanacaq

## “Müharibə mövcud situasiyada Kremlə heç bir halda zəfər vəd etmir”

**ABŞ-ın vitse-prezidenti Kamala Harris ”CBS News” telekanalına müsahibə verib. O bildirib ki, Ağ Ev Ukrayna ilə bağlı vəziyyətə görə Rusiyaya qarşı ”görünməmiş” sanksiyalar tətbiq edə bilər: ”Biz açıq şəkildə bildiririk ki, Rusiya Ukraynanın suverenliyinə müdaxilə etməməlidir. Biz Ukraynanın ərazi bütövlüyünü dəstəkləyirik. Bununla bağlı müttəfiqlərimizlə işləyirik və əvvəllər görünməmiş sanksiyaları tətbiq etməyə hazır olduğumuzu açıq şəkildə bildiririk.**




Digər tərəfdən ”The Washington Post” qəzetində Avropa İttifaqında (Aİ) Rusiyaya qarşı yeni sanksiyaların tətbiqi ilə bağlı müzakirələrin başladığı haqqında məlumat verilib. Bildirilir ki, Aİ Rusiyanı Ukraynaya hərbi müdaxilə edəcəyi təqdirdə yeni sanksiyalar tətbiq etməklə hədələyib. Aİ-nin xarici siyasətində qərarların qəbulu bütün üzv dövlətlərin razılığı əsasında qəbul edilir. Amma bir çox Avropa ölkələri sanksiyalara ehtiyac olmadığını bildirdikləri üçün bu məsələdə ölkələr arasında hələ ki, razılaşma əldə edilməyib.

Qeyd edək ki, Avropa İttifaqı Rusiyaya qarşı iqtisadi sanksiyaların müddətini 31 yanvar 2022-ci il tarixinə qədər uzadıb.

Görünən odur ki, rəsmi Moskva Ağ Evin və Aİ-nin hazırkı mövqeyinə qarşı hansısa addımlar atmağa hazırlaşır. Belə olduğu təqdirdə Qərb Rusiyaya qarşı indiki davranışlarından geri çəkilə bilərmi?

**Politoloq Natiq Miri ”Şərq”ə açıqlamasında bildirib ki, ABŞ və Avropa İttifaqının iqtisadi sanksiyaların tətbiqinə dair açıqlamaları daha çox çəkindirici xarakter daşıyır:**

”İstəyirlər ki, Rusiya yaratdığı hərbi böhran vəziyyətindən geri çəkilsin və müəyyən güzəştlərə hazır olsun. Avropa İttifaqında bununla bağlı fikirlər haçalanır. Çünki burada özünün geosiyasi maraqlarını güdən ölkələr var. Onlar öz maraqları kontekstində qərar verməyi üstün tuturlar. Bu da Aİ-yə üzv dövlətlər, bütövlükdə NATO içində müəyyən parçalanmalara gətirib çıxarır. Ancaq bu qərar hətta yekdilliklə qəbul olunsa da, Rusiya üçün o qədər də ciddi, çəkindirici məqam olmayacaq. Məsələnin rəsmi Moskva üçün ən pis tərəfi Rusiya banklarının, beynəlxalq xarakter daşıyan bankların və xarici pul köçürmələri svift sistemindən Rusiyanın tamamilə xaric edilməsi ola bilər. Düşünürəm ki, artıq rəsmi Moskva müəyyən mənada buna hazırdır. Sistemlər qurulub və ikitərəfli iqtisadi münasibətlər kontekstində bu pul köçürmələrinin həyata keçirilməsi mümkün hala gəlib”.

**Politoloqa görə, indiki halda Putin öz ambisiyalarının girovuna çevrilib və hazırda rəsmi Moskvanın geri çəkilməsi onun yaratdığı xof nöqteyi-nəzərindən ölkə üçün öldürücü mahiyyət daşıya bilər:** ”Rusiya hesablamamışdı ki, Qərb dünyası, ABŞ, eyni zamanda NATO hazırkı şəkildə dirəniş göstərə bilər. Avroatlantik məkana qarşı bu addım bir növ Rusiya və Putin üçün test xarakterilidir. Düşünürəm ki, bu imtahandan Qərb dünyası ciddi şəkildə qalib çıxa bilsə, o zaman rəsmi Moskva itirmiş olacaq. İmtahan dediyim prosesdə Qərbin ciddi hərbi addımlar atacağını düşünürəm. Yəni NATO eyni zamanda Aİ çərçivəsində çevik qüvvələrini Ukraynaya cəlb edəcəyi təqdirdə Rusiyanın qaçacaq yeri qalmayacaq. Beləcə onun hərbi böhran yaratmaqla əldə etmək istədiyi nəticələr sıfıra bərabər olacaq”.

**N.Miri NATO-nun Avroatlantik məkanı dedikdə bu məsələdə təkcə Aİ-nin ürkək səsli ölkələrini nəzərdə tutmadığını, burda eyni zamanda NATO-nun cənub sərhədini qoruyan qardaş Türkiyəni də düşündüyünü vurğulayıb:** ”Rəsmi Ankara belə bir vəziyyətdə oyundan kənarda qala bilməz. Onun hərəkətə keçməsi isə Rusiya üçün bu vəziyyətin çox acınacaqlı sonluqla bitməsi deməkdir. Buna görə də müharibə mövcud situasiyada Rusiyaya heç bir halda zəfər vəd etmir. İndi onun qarşısında 2014-cü ildə Krım işğal olunanda hərəkətsiz qalan əvvəlki ABŞ və NATO yoxdur” Politoloqun fikrincə, Qərb qətiyyətli addım atacağı təqdirdə şübhəsiz ki, Rusiya dayanacaq və bu kontekstdə danışıqlar aparmaq məcburiyyətində qalacaq.

**Günəş Mərd**

# Razi Nurullayev yenə narazıdır

## “Elə şəhid, əlil ailəsi var ki, indiyə kimi heç qapısı döyülməyib”

**”Azərbaycanda Birinci Qarabağ mühairbəsindən 20 minə yaxın, İkincidən isə 3000 minə yaxın şəhid ailəsi var. Əlavə olaraq, sağlamlıq və digər səbəblərdən dövlət dəstəyinə ehtiyacı olan müharibə əlilləri var”. Bu barədə parlamentin dünənki iclasında çıxış edən deputat Razi Nurullayev deyib. Millət vəkili bildirib ki, onlara dövlət qurumları tərəfindən müxtəlif köməkliklər edilir: ”Elə olur ki, bir ailəyə, bir əlilə beş-on dəfə kömək edilir, amma elə ailə, yaxud əlil var ki, indiyə kimi heç qapısı döyülməyib.**

Ayrı-ayrılıqda dövlət qurumları, o cümlədən özəl şirkətlər, fərdi şəxslər müraciət edən şəhid ailəsinə və əlilə yardım edir, ev verir, işə götürür, digər problemlərini həll edirlər. Əsasən, ”Yaşat” fondu kömək etdiyi şəhid ailəsi və ya əlil ilə bağlı tam məlumatlara malikdir və bunu tənzimləyə bilir. Qarma-qarışıqlığı aradan qaldırmaq üçün təklif edirəm ki, bu tip məlumatlar ASAN xidmətdə emal edilsin və vahid mərkəzdə - Şəhid ailələri, müharibə əlilləri və bu kateqoriyadan olan şəxslərin dövlət reyestrində birləşdirilsin. Digər yandan, vahid informasiya mərkəzinə hər kəsin çıxışı olsun. Bir dövlət qurumu, yaxud özəl şirkət, fərdi sahibkar və digərləri müraciət edən şəxslə bağlı o resursa daxil olsun və bütün məlumatları görsün. Bunu qanunvericilik səviyyəsində edə bilsək, bir çox problemləri yerində həll edə bilərik”.

**R.Nurullayevin qənaətincə, elə sistem olmalıdır ki, bütün şəhid ailələri və ehtiyacı olan müharibə əlilləri əhatə olunsun:** ”Elə olmasın ki, bir ailə və ya şəxs müxtəlif dövlət orqanlarından yararlana bilsin, digərləri isə kənarda qalsın. Onların yüz dəfə də yararlanmaq haqlarıdır və halalları olsun. Amma növbəli şəkildə. Ailə və müharibə əlili və ya yaralısı var ki, oturub gözləyir ki, onun qapısı nə zaman döyüləcək. Bütün şəhid ailələrinin, müharibə əlillərinin və bu kateqoriyadan olan digər ehtiyaclı şəxslərin reyestrdə birləşdirilməsi zamanı onların mövcud problemləri göstərilsin. Dövlət orqanları, fərdi şəxslər də kömək etmək istəyən zaman güclərinə və istəklərinə uyğun seçim edə bilsinlər. Bunu edə bilsək, xaricdə yaşayan azərbaycanlılar da bu işdə yaxından iştirak edər və yükümüzü 50 faiz azalda bilərlər”.



**“Elə sistem olmalıdır ki, bütün şəhid ailələri və ehtiyacı olan müharibə əlilləri əhatə olunsun"**

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# İllik hesabatı qənaətbəxş hesab etmək olar

## Gender bərabərliyinin təmini üçün qanunvericiliyə dəyişiklik edilməsi zəruridir

Mələhət Rzayeva

**Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı təqdim olunub. İllik məlumatı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Milli Məclisin dünən keçirilən iclasında açıqlayıb. Məlumat göstəriciləriylə diqqət çəkir.**

Burada 2020-ci il ərzində ölkə üzrə ailə-məişət məsələləri fonunda baş vermiş hadisələr, erkən nikah, 18 yaşa çatmamış analar, həmçinin rəsmi nikahsız anaların dünyaya gətirdiyi körpələrlə bağlı statistik göstəricilər qeyd edilib. Məlumata nəzər yetirdikdə ötən illərlə müqayisədə gender problemləri, ailə, demoqrafiya məsələləri ilə bağlı göstəricilərdə müsbətə doğru dəyişiklik olduğu görünür. Bu da əlbəttə ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin apardığı məqsədyönlü fəaliyyətin nəticəsi hesab edilməlidir. Məlumatı açıqlayan komitə sədri Bahar Muradova 18 yaşadək analar tərəfindən doğulan uşaqların iqtisadi rayonlar üzrə statistikasını təqdim edib. B.Muradova qeyd edib ki, 2020-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 1917 nəfər təşkil edib. Onlardan Aran iqtisadi rayonu üzrə 698 nəfər, Gəncə-Qazax iqtisadi rayonu üzrə 325 nəfər, Lənkəran iqtisadi rayonu üzrə 306 nəfər və Dağlıq Şirvan iqtisadi rayonu üzrə 109 nəfər qeydə alınıb. Ən az göstərici isə Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə 40 nəfər olmaqla qeydə alınıb. Ötən il 165 nəfər 15 yaşınadək qızın nikahı qeydə alınıb. B.Muradova qeyd edib ki, 2020-ci ildə 18 yaşadək analar tərəfindən doğulan uşaqların sayı 1917 nəfər, 2019-cu ildə isə 2320 olub. Ötən il qısqanclıq, ailə münaqişəsi və s. məişət problemləri zəmnində 973 cinayət hadisəsi baş verib. Bu rəqəmlər də Milli Məclisdə dünən müzakirəyə çıxarılan "Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı"nda əksini tapır. 2020-ci ildə ölkə üzrə qadınlara qarşı 5 176, o cümlədən zorakılıqla müşayiət olunan 2 067 cinayət qeydə alınıb. Həmin cinayətləri törətmiş 2 414 şəxs məhkəmə məsuliyyətinə cəlb olunub. Ötən il Azərbaycanda nikahları rəsmi qeydə alınmamış analar tərəfindən doğulan uşaqların sayı da açıqlanır. Məlumata əsasən 2020-ci ildə ümumilikdə 126 571 uşaq doğulub. Onlardan 67 407 nəfəri oğlan, 59 164 nəfəri isə qızdır. Bu uşaqlardan 108 857 nəfəri (58 219 oğlan, 50 638 qız) rəsmi nikahlardan, 17 714 nəfəri isə (9 188 oğlan, 8 526 qız) qeyri-rəsmi nikahlardan doğulub. Statistik göstəricilərdən əlavə illik hesabatda maraqlı təklif də irəli sürülüb. Təklif həyat yoldaşının uşaq dünyaya gətirməsi ilə əlaqədar atalara verilən 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla olmasından ibarətdir. "Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı"nda bununla bağlı qanunvericiliyə dəyişiklik edilməsi təklif olunur. Bundan əlavə, seksual qısnamaya, ayrı-seçkiliyi əks etdirən iş elanlarına görə sanksiyaların müəyyən edilməsi üçün də müvafiq qanunvericiliyə dəyişikliklərin edilməsi təklifi də var.



**"Atalara da analarla yanaşı məzuniyyət verilməli, həm də bu, ödənişli məzuniyyət olmalıdır"**

**İllik hesabatı qənaətbəxş hesab edən Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə "Şərq"ə açıqlamasında gender bərabərliyinin təmini üçün qanunvericiliyə dəyişiklik edilməsinin zəruri olduğunu dedi:**

- İllik məlumatda gender və ailədaxili problemlərlə bağlı məlumatlar əksini tapır. Bu məlumatlara əsasən ölkədə ailə-məişət və gender məsələlərində hansı problemlərin mövcud oduğunu görə bilirik. Dövlət Komitəsinin üzərinə böyük yük düşür. Xüsusilə də erkən nikahların qarşısının mümkün qədər alınması, məişət problemlərinin yerində həll edilməsi. Sizə bildirim ki, bu məsələlərdə qeyri-hökumət təşkilatları, ictimai institutlar da fəallıq göstərir. Lakin dövlətin əlində daha təsirli vasitələr var. Bu məsələlərdə dövlət orqanlarının ictimai institutlarla birgə əməkdaşlığı vacibdir.

K.Ağazadə qeyd etdi ki, həyat yoldaşının uşaq dünyaya gətirməsi ilə əlaqədar atalara verilən 14 günlük ödənişsiz məzuniyyətin ödənişli əsaslarla olmasıyla bağlı qanunvericiliyə dəyişiklik edilməsi təklifini dəstəkləyir:

- Biz gender bərabərliyinin təmin edilməsinə çalışırıqsa, atalara da analarla yanaşı məzuniyyət verilməli, həm də bu, ödənişli məzuniyyət olmalıdır. Uşaq təkcə anaya aid deyil, həm də ataya aiddir. Əvvəllər belə məsələlər ərazi üzrə poliklinikalar tərəfindən verilən xəstəlik barədə arayışlar (bülleten) vasitəsilə həll edilirdi. Həyat yoldaşı körpə dünyaya gətirən kişilər - atalar müəyyən müddətə işə getmir və məhz bu arayışlar əsasında əmək haqqı, səhv etmirəmsə 85 faiz ödənilirdi. İndi bu məsələni qanunvericiliyə müvafiq dəyişikliklə həll etmək olar. 14 günlük müddəti 1-3 ayadək uzatmaq da mümkündür. Niyə qadın körpəyə təkbaşına qulluq etməlidir? Körpəyə həm ana, həm də ata qulluq edərsə, ailənin problemləri azalar. Ödənişli məzuniyyət hüququnun bərpasıyla dövlət də gənc valideynlərə dəstək olar. Həm zəruri maddi dəstək, həm də mənəvi dəstək. Artıq çoxdan sübut olunub ki, atayla ünsiyyət, atanı yanında hiss etmək körpəyə müsbət impulslar ötürülməsinə səbəb olur. Bu, qadına - anaya da böyük dəstəkdir. Mən bu təklifi alqışlayıram. Təki qəbul edilsin.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Qərar çox gecikib

## "Bakı xaotik bazar şəhərinə dönüb"

**Bu yaxınlarda Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin kollegiyasının qərarı ilə "Yaşayış binaları. Layihələndirmə normaları" təsdiqlənib. Həmin sənəddə yaşayış binalarının tikintisi ilə bağlı bir sıra yeniliklər öz əksini tapıb.**

Sənəddə qeyd olunan ən maraq doğuran məqamlardan biri də yaşayış binasının zirzəmi, kürsülük, birinci və ikinci mərtəbələrində insanlara zərərli təsir göstərən bəzi obyektlərin yerləşdirilməsinə qoyulan qadağalardır. Sənədə görə, bəzi obyektlər yaşayış binasının birinci mərtəbəsində fəaliyyət göstərə bilməz.

**Qərarla bağlı "Şərq"ə danışan "Altay" Sosial-Araşdırmalar Mərkəzinin rəhbəri, sosioloq Elçin Bayramlı bildirib ki, ümumilikdə götürsək, qərar çox yaxşı qərardır:** "Bu sahədə çox ciddi problemlər var idi, daha doğrusu, faktiki anarxiya hökm sürürdü. Heç bir dünya standartlarına, insani yaşayış normalarına uyğun olmayan şəkildə tikintilər davam edirdi. Çünki sadəcə bazar münasibətləri əsasında pul qazanmaq məqsədi güdülürdü".

**E.Bayramlı tikinti sahəsini dünyadakı vəziyyətlə müqayisə edib:** "Bakı xaotik bazar şəhərinə dönüb. Şəhərdə nizam yoxdu. Bunu hər yerdə görə bilərik. Moskvada yaşayış binaları salınanda ərazinin əsas hissəsi yaşıllığa və uşaq meydançasına ayrılır. Ümumi sahənin üçdə ikisi bina ola bilər".

Ekspert hesab edir ki, bu qayda əslində gecikib: "Yaxşı qaydadır. Amma demək olar ki, bütün şəhər artıq tikilib, qurtarıb. Təəssüf ki, çox gecdir".

Sosioloq bu gün binalardakı əsas problemləri də vurğulayıb: "Binaların idarə edilməsi məsələsi də ciddi problemdir. Şirkətlər bəzi xidmətlər üçün müəyyən qiymətlər qoyur. Amma bunlar ortalama maaşı 300 manat olan əhali üçün bahadır. Düşünürəm ki, şəxsi əmlakda yaşamaq üçün xidmət haqları məcburi olmamalıdır. Bu pulun yığılması prosesi də sakinlərin üzərindən götürülməlidir. Bunu xüsusi orqanlar həyata keçirməlidir. Bu məsələlərə də baxılsa çox yaxşı olar. Əgər bu olmasa, ciddi problemlər yaranacaq".

**Çimnaz Şahlar**

# Azərbaycanda övladlığagötürmə ilə bağlı yeni qaydalar təsdiq edildi

**Azərbaycanda övladlığagötürmə qaydasına dəyişiklik təklif edilir.**



Bununla bağlı Milli Məclisin keçirilən iclasında müzakirəyə çıxarılan Ailə Məcəlləsinə dəyişiklik olunur.

Dəyişikliklə Məcəllənin 118.20-ci bəndi yeni redaksiyada verilir: "Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sisteminə ötürülür".

*Məcəllənin hazırkı bəndi isə belədir:* "Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur". Müzakirələrdən sonra dəyişikliklər üçüncü oxunuşda səsverməyə qoyularaq qəbul edilib.

# Ermənistan sülh müqaviləsinə hazır deyil

## "Bu qəbildən olan informasiyaların dövriyyəyə buraxılması yalnız rəsmi İrəvanın təbliğatına xidmət edir"

**"Bəzi yerli media resurslarında Ermənistanın Baş naziri Nikol Paşinyanın sülh müqaviləsi ilə bağlı səsləndirdiyi fikirlərinin alayarımçıq təqdim olunmasının izahını tapa bilmirəm". Bunu siyasi analitik Elçin Mirzəbəyli deyib. Analitik bildirib ki, Paşinyan deyib ki, Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamağa hazırdır. Amma daha sonra dedikləri bunun əksini sübuta yetirir.**



**Elçin Mirzəbəyli: "Paşinyanın fikirlərinin alayarımçıq təqdim olunmasının izahını tapa bilmirəm"**

Paşinyan "əlbəttə, biz bu mövzuda danışıqların başlamasına və sülh müqaviləsinin imzalanmasına hazırıq. Bir müddət öncə ATƏT-in Minsk qrupunun həmsədrləri danışıqların gündəliyini təklif etmişdilər. Müddəalardan biri hərtərəfli sülh müqaviləsi məsələsi ilə bağlı idi. Bəli, biz bunda maraqlıyıq. Belə bir təsəvvür yaradılır ki, guya, biz sülh müqaviləsinin və "Qarabağ münaqişəsi"nin hərtərəfli həllinin əleyhinəyik. Əlbəttə ki, bu belə deyil. Biz bunda maraqlıyıq". Bu sözlərdən dərhal sonra Nikol ölkəsinin sərhədlərin delimitasiya və demarkasiyasında, həmçinin kommunikasiyaların açılmasında da maraqlı olduğunu iddia edir. Göründüyü kimi, Paşinyan öz çıxışında sülh müqaviləsinin imzalanmasını mümkünsüz edən iki məqamı manipulyativ şəkildə, gəlişigözəl sözlərin içərisində "əritməklə" ictimai rəyə sırımağa cəhd göstərir. Bunlardan biri ATƏT-in Minsk qrupunun həmsədrlərinin təklif etdiyi gündəliklə, digəri isə Azərbaycan Ordusunun qələbəsi ilə bütün gündəliklərdən silinmiş "Dağlıq Qarabağ münaqişəsi" ifadəsi ilə bağlıdır. Paşinyan iddia edir ki, ATƏT-in Minsk qrupu danışıqların aparılması üçün gündəlik təqdim edib və bu gündəlikdəki müddəalardan biri sülh müqaviləsi ilə bağlıdır. O zaman tamamilə təbii bir sual çıxır ortalığa: Bəs gündəlikdəki digər müddəalar nə ilə bağlıdır? Və daha sonra Paşinyan "Ermənistanın sülh müqaviləsinin və "Qarabağ münaqişəsi"nin hərtərəfli həllinin əleyhinə olmadığını" vurğulamaqla, dolayısıyla gündəlikdə Ordumuzun "dəfn etdiyi ölünün" yenidən xortladılması ehtimalının olduğunu ictimai rəyə sırımağa çalışır".

**E.Mirzəbəyli vurğulayıb ki, əvvəla, Nikol Paşinyanın ATƏT-in Minsk qrupunun "gündəliyində yer alan məsələlər"lə bağlı mülahizələrinin heç birinin Azərbaycan tərəfindən qəbul edilmədiyi hər kəsə bəllidir:** "Çünki Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiya prosesi Minsk qrupu həmsədrlərinin fəaliyyətdə olduğu zaman kəsiyində də bu fərsiz təsisatın mandatına daxil olmayıb. Hazırda isə konkret delimitasiya və demarkasiya ilə bağlı məsələlərin yalnız iki dövlətin yaratdığı, Rusiya və Avropa İttifaqının məşvərətçi kimi iştirak etdiyi işçi qrupu çərçivəsində müzakirə ediləcəyi barədə yekun qərarın olduğu hər kəsə bəllidir. Yəni bu məsələdə "ATƏT-in Minsk qrupu" format olaraq heç "ehtiyat oyunçular" skamyasında da deyil. Kommunikasiyaların açılmasına gəldikdə isə bu məsələnin də Minsk qrupu ilə heç bir əlaqəsi yoxdur. Bu məsələ 10 noyabr 2020-ci il, 11 yanvar 2021-ci il və 26 noyabr 2021-ci il bəyanatlarının prinsiplərinə uyğun bir şəkildə gerçəkləşdirilir. "Dağlıq Qarabağ" və "münaqişə" ifadələrini isə cəhənnəmə göndərmişik və son olaraq, həm NATO-nun Şimali Atlantika Şurasının son toplantısının yekun sənədində, həm də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Azərbaycanın dövlət başçısı ilə Ermənistanın baş naziri arasında keçirilən görüşdən sonra yaydığı bəyanatda bu ifadələrin yer almaması, beynəlxalq birliyin rəsmi Bakının mövqeyini qəbul etdiyini göstərir. Belə olduğu təqdirdə, Nikol Paşinyanın sülh müqaviləsinin imzalanmasına mane ola biləcək məsələləri yenidən gündəmə gətirməsi, rəsmi İrəvanın köhnə oyunlarından əl çəkmədiyini nümayiş etdirir. Bu baxımdan, "Ermənistan sülh müqaviləsi imzalamağa hazırdır" kimi təqdimatların verilməsi kökündən yanlışdır və bu qəbildən olan informasiyaların dövriyyəyə buraxılması yalnız rəsmi İrəvanın təbliğatına xidmət edir".

**İsmayıl**

# Xalqın sonsuz məhəbbətini qazanmış insan...

## Tatlı Bayram kimi şəxsiyyətlər tarixi romanların qəhrəmanları olmağa layiqdir

**Şairlər (yazıçılar), alimlər, vətəni Qazaxın Tatlı kəndində 1890-cı ildə dünyaya göz açdığı kəndin xüsusi coğrafi adını özünə təxəllüs götürdüyünə görə Tatlı Bayram adıyla tanınır. Burada Tatlı toponimi Bayram adının ayrılmaz hissəsinə çevrildiyi üçün Tatlı Bayram toponimi formalaşdırmışdır. Keçmişdə Ağstafa müstəqil rayon mərkəzi deyildi, Qazaxın konkret bir bölgəsi kimi tanınırdı. Ağstafa ayrıca rayon mərkəzi sayıldığı, Tatlı kəndi Qazaxa nisbətən ona xeyli yaxın yerdə yerləşdiyi üçün həmin rayonun tabeliyində hesab edilir.**

Tatlı Bayram (Cəfərov Bayram Məmməd oğlu) müsbət mənəvi əxlaqi keyfiyyətlərinə-bacarığına, məsuliyyətinə, prinsipiallığına, zəhmətsevərliyinə, vətənpərvərliyinə, cəsarətli, qorxmaz olduğuna görə Qazax, Ağstafa rayonlarında yaşayan insanların dərin hörmətini, sevgi və qazanmış, onların ürəyində əbədi iz qoymuş, gəncliyindən el-obasının istəklisi kimi tanınmışdır.



Milis məktəbində təhsil alan və oranı uğurla bitirən Tatlı Bayram keçən əsrin İyirminci illərində Milis sistemində yüksək vətəndaşlıq, ləyaqəti mövqeyindən çalışmağa başlamışdır. Şəxsi bacarığını, fiziki gücünü, öz işinə yetərincə ciddi, məsuliyyətlə yanaşmasını, mərdliyini nəzərə alaraq ən çətin, ağır işləri ona tapşırmışlar.

Tatlı Bayram da doğma vətəninə, xalqına, milli adət-ənənələrinə bağlı olan başqa tarixi şəxsiyyətlər kimi zamanının oğlu idi. Buna görə də dövrün tələblərinə uyğun hərəkət etmiş, Sovet dövlətinin qanunlarına sədaqətlə xidmət göstərmiş, tutduğu vəzifə ondan sərtlik tələb etsə də, mənəvi, humanist prinsiplərə söykənib xidməti vəzifəsini yerinə yetirmişdir. Sovet hökumətinin qanunlarına qarşı çıxmaq istəyənləri düzgün yola yönəltməyi bacarmışdır, dövlətin qanunlarının həyata keçirilməsinə əngəl törədən dəstələr, ayrı-ayrı fiziki şəxslər Tatlı Bayramın insanpərvərliyini, qayğıkeşliyini görüb pis əməllərindən əl çəkmişlər. O, müdrik şəxsiyyət ölçüyəsığmaz xeyirxahlığı ilə xalqın sevgisini qazanmış Ağstafa, Qazax, Tovuz rayonlarında milis şöbəsinin rəisi vəzifəsində işləmişdir. Böyük Vətən müharibəsi illərində xidməti işi ilə bağlı İrana göndərilmiş yerinə yetirilməsi vacib hesab edilən gizli tapşırıqları həyata keçirmişdir. Müharibədən sonrakı illərdə fəaliyyəti ilə tanışlıq Tatlı Bayramın gördüyü yaxşı işlərdən, xeyirxahlığından danışmağa, haqqında qürur hissi oyadan, önəmli sözlər deməyə zəruri ehtiyac doğurur. Göstərilən dövrdə Mingəçevir şəhərinin milis rəisi işləyən Tatlı Bayram həmin şəhərin salınmasında, orada aparılan quruculuq işlərində yetərincə önəmli , dəyərli işlər aparmışdır. O, çox isti, qızmar havalı yay fəslində, ağır, çətin şəraitdə yüksək təşkilatçılıq bacarığı göstərərək belə vəziyyətdə dözümlü, bacarıqlı, çətinliklərin öhdəsindən gəlməyi bilən, iradəli insanlar seçərək işçi qüvvəsi yaratmışdır. Şəxsi nümunə göstərib, onları zəhmətə, işə ruhlandırımışdır. Bu fədakar, qəhraman insanların seçimində heyrət doğuran çox önəmli rol oynamışdır. Milis mayoru kimi təqaüdə çıxan Tatlı Bayramın müəyyən vaxt həyata göz açdığı və boya - başa çatıb formalaşdığı Tatlı kəndində kolxoz sədri işlədiyi, 1959-cu ildən fərdi təqaüdə çıxsa da, ömrünün sonuna qədər milis işçilərinin məsləhətçisi olduğu bildirilir.

Səxavətliliyi, xeyirxahlığı, qonaqpərvərliyi Tatlı Bayrama xalqın sonsuz məhəbbətini, hörmətini qazandırmışdır. Müxtəlif peşələrə məxsus insanlar, fəhlələr, ziyalılar, yüksək vəzifəli dövlət məmurları onun evinin qonağı olmuşlar. Qapısı ümid yeri, adı inam-and obyekti olan, bütün Zaqafqaziyada, İranda yaxşı tanınan Tatlı Bayramın hələ sağlığında canlı əfsanəyə çevrildiyi, onu tanıyanlar tərəfindən sevildiyi dərin hörmət bəslənildiyi söylənilir.

Partiya və dövlət onun əməyini yüksək qiymətləndirmiş "Qırmızı Ulduz" (2 dəfə), " Şərəf nişanı", " Qırmızı Bayraq", " I Dərəcəli Vətən Müharibəsi" ordenləri və b. medallarla həmçinin SSRİ Ali Sovetinin fəxri fərmanı ilə təklif edilmiş, xəncər, tapança ilə mükafatlandırılmışdır. O, Qazax rayon Sovetinin deputatı, rayonun Büro üzvü olduğu yazıçı Ş. Əsgərovun "Üç Düşmən" əsərində onun obrazını yaratdığı, barəsində dəfələrlə qəzetlərdə yazıldığı, radio-televiziya verilişləri hazırlandığı dəfələrlə mötəbər məclislərə dəvət edildiyi bildirilir.

Xalqın dərin hörmətini qazanmış Tatlı Bayram 1981-ci ildə dünyasını dəyişmiş , böyük təntənə ilə Ağstafa şəhərinin qəbiristanlığında dəfn edilmişdir. Adı hörmətlə yad edilir. Tatlı Bayrama da adlı-sanlı müəllim, istedadlı ədəbiyyatşünas alim, böyük yazıçı İsmayıl Şıxlı kimi " Qeyrət Mücəssəməsi" adı yaxşı yaraşır. O, "ağrın Alım" kəlməsini nitqində tez-tez işlədərək, rayon rəhbərliyinin ünvanına xoş sözlər, ifadələr deyərək Qazax mərkəzi parkında məşhur şəxsiyyətlərin büstləri sırasında hələ sağ ikən büstünü qoyduranlardan deyildir.

Tatlı Bayram xarakterinə, hörmətinə və bacarığına görə belələrindən çox-çox uzaq dayanır. Halbuki Qazaxın məşhur şairlərinin, nasirlərinin, alimlərinin, hərbiçilərinin abidələri sırasında böyük nüfuz sahibi Tatlı Bayramın, elə də məşhur, tanınmış alimlər İlyas Abdullayevin, Nazim Əfəndiyevin, eləcə də həmişə yaşar söz və saz ustası Mikayıl Azaflının abidələri də ucaldılmalıdır.

Məşhur söz və saz ustadı Mikayıl Azaflının "Özüm ölsəm, sözüm ölməz " (Bakı. "Şur" nəşriyyatı 1994, 48 səh.) kitabında çap olunmuş "Qazaxdadır" şeiri güclü vətənpərvərlik ruhunda yazılmış özəl (orijinal) yaradıcılıq nümunəsidir. Mikayıl Azaflının yaradıcılıq axtarışı adlanmağa yetərincə cavab verən, həyat həqiqəti ilə yaradıcılıq təxəyyülünün vəhdətin daşıyıcısı olan bu şeiri həcmcə kiçik, məzmunca dolğun ensiklopediya adlandırsaq, heç də səhv etmərik. Mikayıl zəngin fantaziyalı rəssam kimi müxtəlif sözlərlə, ifadələrlə Qazağın bəzəkli tablosunu yaratmışdır. Burada Qazax hər qarış torpağı dürlü, şöhrətli, loğman təbiəti, Vaqif, Vidadi, Vurğun kimi dahilər yurdu, Kərəm kimi İgidlər məskəni adlandırılmış, dəyərləndirilmiş, onun hər bir kəndinin adı çəkilmişdir. Tatlı Bayram da Mikayıl Azaflının şeirində adlarını sadaladığı Hacıtağı, Muxtar kimi şəxsiyyətlərdən biridir.

Əsl insana məxsus dəyərli keyfiyyətləri qoruduğu üçün heç vaxt xarakterindəki mülayimlikdən, yumşaqlıqdan uzaqlaşmamış, əqidəsindən dönməmişdir. O, pisliyin insana yaraşmayan sifət olduğuna görə həmişə yaxşıllıq etməyi qarşısına məqsəd qoymuşdur. Tutduğu vəzifə həmin işin daşıyıcısından qəddarlığı, amansızlıq tələb etsə də, müdrikliyi onun bir çox qolçomağı, qaçağı, fərarini düzgün yola gəldiklərinə görə ölümün pəncəsindən qurtarması, ailələrinə qovuşdurması ilə nəticələnmişdir. Bu haqda deyilənlər danılmaz həqiqətdir.

Tatlı Bayram tarixi şəxsiyyət səviyyəsinə yüksəlmiş insandır. Belə şəxsiyyətlər tarixi romanların qəhrəmanları olmağa layiqdir. Həm də tarixi romanlar həyat həqiqətlərini, dövrün ruhunu doğru əks etdirməlidir. Çünki tarixi əsərlərdə hər bir bədii detalın da təhrifi düzgün verilməməsi oxucularda təsvir olunan varlığa, hadisəyə, şübhə oyadır, onlarda inamı azaldır. Xüsusilə, tarixi şəxsiyyət statusu qazanmış şəxslər barəsində yazılan əhvalatlar, hadisələr reallığı, həqiqəti olduğu kimi əks etdirməlidir.

**Yusifov Yusif,**
**ADPU-nun Azərbaycan Dilçiliyi Kafedrasının Dosenti,**
**ümumi dilçilik ixtisası üzrə professor**

# Bizə də gəlib çatdı?

## Bəzi xəstələrdə "Omicron"un əlamətləri müşahidə olunur



**Yeni koronavirusun (COVID-19) "Omicron" ştamı "Delta" ilə müqayisədə insanların bronxlarında 70 dəfə daha sürətlə çoxalır.**

Honq Konq Universitetinin Tibb fakültəsi tərəfindən aparılmış tədqiqatın nəticələrinə görə, "Omicron" ştamının yüksək yoluxduruculuq qabiliyyəti var. Tədqiqat nəticəsində "Omicron" ştamı vaksinlərlə və daha əvvəl keçirilmiş xəstəlik nəticəsində əldə edilmiş immunitetdən qismən yayına bilir. Həmçinin ağ ciyərdə daha az şiddətli infeksiyaya səbəb olur. "Delta" ştamı ilə müqayisədə virusun bu ştamına yoluxma zamanı xəstəliyin əksər hallarda daha yüngül keçdiyi müşahidə edilir.

"Omicron" təhlükəsi ilə bağlı "Şərq"ə danışan Azərbaycan Dövlət Tibb Universitetinin professoru, tibb elmləri doktoru Adil Qeybulla bildirib ki, koronavirusun bu ştamının Azərbaycanda da yayılma ehtimalı yüksəkdir:

"Omicron" ştamı "Delta"ya nisbətən daha sürətlə yayılmağa meyillidir. Lakin virusun intensivliyi zəifləyib. Bu da gələcəkdə mutasiya ştamların zəifləyəcəyinə ümid doğurur. Yəqin ki, ölkəmizdə də virusun bu ştamı artıq varlığını sürdürür. Bəzi xəstələrdə "Omicron"un əsas əlamətlərinin mövcudluğuna şahid oluruq. Virusa qarşı vacib addımlar atılmalıdır. Tədbirlər çərçivəsində vaksinasiyanın intensivliyini artırmaq və karantin tədbirlərinin gücləndirilməsi önəmlidir" .

**Xanlar ƏLİBƏY**

**Elan**

Quliyev Vaqif Dadaş oğlunun adına verilmiş Nizami rayonu R.Teymurov küçəsində yerləşən, 2/15 nömrəli evin qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

---

Azərbaycan İqtisadiyyat Universitetinin nəzdində Azərbaycan Maliyyə İqtisadiyyat kollecinin tələbəsi Fətiyeva Məryəm Əhməd qızına məxsus tələbə bileti, təqaüd kartı itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
-**Dizayn** (3-6ay)
-**Masaj** (3 ay)
-**Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

# Kişilər arasında intihar halları artıb

## Pandemiyanın fəsadları güclü cinsi daha çox "vurdu"



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova parlamentin bu gün keçirilən iclasında Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatını təqdim edib.**

B.Muradova deyib ki, Azərbaycanda kişilər arasında intihar hadisələri daha çox üstünlük təşkil edir: "Ancaq cəmiyyət qadın intiharlarına daha həssas yanaşır".

**Kişilər arasında intihar hallarının artması barədə "Şərq"ə danışan psixoloq Fərqanə Mehmanqızı bildirib ki, kişilərin qadınlara nisbətən intihara daha çox cəhd etməsi yəqin ki, pandemiyanın yaratdığı fəsadların nəticəsidir:** "Daxili aqressiya, özgüvənsizlik intihara gətirib çıxarır. Ailə başçısı kimi maddi və mənəvi cəhətdən öz məsuliyyətlərini yerinə yetirə bilməmək özünüqəsdə yol açır. Uşaqları tərbiyə edərkən hisslərini büruzə verməyi öyrətmək lazımdır. Cəmiyyətimiz kişilərə hisslərini cilovlamağı, emosiyalarını, incə hisslərini bildirməməyi aşılayır. Bu da daxili aqressiyaya gətirib çıxarır. Məsələn, mentalitetimizdə kişi ağlamaz ifadəsi var. Nəzər salsaq, görərik ki, dünyada kişilərin infarktı qadınlara nisbətən artmaqdadır. Bu, qəbul olunmuş faktdır. Kişilərin üzərindəki məsuliyyətin başında hissləri ifadə etməmək dayanır. Əksəriyyət sevgi hisslərini, etirazlarını da nümayiş etdirə bilmir. Belə bir vəziyyət də yaranıb ki, kişi duyğularını qabartmalı deyil. Hisslərini daxildən yaşamaq sonda mənəvi aclığa səbəb olur. Bu da intihara təkan verir".

**Sücayət Mehti**

# Uşaqlar mütləq psixoloji dəstək almalıdır

## Zorakılıqlara məruz qalan şagirdlərdə travmalar bəzən qalıcı olur

**2019-2020-ci illərdə 35 şagird təhsil müəssisələrindən kənarda zorakılığın müxtəlif növlərinə məruz qalıb.**

Bu barədə Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan "Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı"nda əksini tapıb.

Sənəddə qeyd edilib ki, həmin illərdə "Məktəblinin dostu" layihəsi çərçivəsində layihənin tətbiq olunduğu təhsil müəssisələrində layihə psixoloqları ilə şagirdlərin söhbəti zamanı 35 nəfər şagirdin təhsil müəssisələrindən kənarda zorakılığın müxtəlif növlərinə məruz qalması aşkar olunub.



Həmin şagirdlərdən 5-i seksual, 7-si fiziki, 5-i psixi zorakılığa və 18-i isə qısnamaya məruz qalıb.

Bütün bunlar uşaqlarda psixoloji fəsadlar yaradır. Məktəb heyəti, psixoloq, müəllim, rəhbərlər daha ayıq-sayıq olmalıdır. Bəs, valideynlər nəyə diqqət etməlidir?

**Psixoloq Mədinə Rəsulova "Şərq"ə mövzu barədə bunları söyləyib:** "Bu kimi zorakılıqlara məruz qalan şagirdlərdə fərqli travmalar yaranır. Hətta terapiya olana qədər qalıcı olur, onların davranışlarında, ətrafla ünsiyyətlərində və münasibətlərində özünü büruzə verir. Kimisində günah və utanc, kimisində güvənsizlik və qorxu hissi ilə təzahür olunur. Təbii ki, bu da gələcək həyatlarına mənfi təsir göstərir. Bunun qarşısını almaq üçün uşaqlar mütləq şəkildə psixoloji dəstək almalıdır".

**Psixoloq vurğulayıb ki, şagirdlərin sarsıntılardan çıxması üçün yaxınlarının yanında olaraq dəstək göstərilməsi vacibdir:** "Ailəsi, böyükləri, müəllimləri onlardan qayğılarını əsirgəməməlidir. Azyaşlı uşaqlarda utanc duyğusu pik vəziyyətdə olur. Ona görə də ətrafı onlara özlərini güvənsiz hiss etməməsi üçün yardım etməlidir".

Mədinə Rəsulova bu mövzu ilə bağlı hansı tədbirlərin görülməsini də izah edib: "Valideynlər, məktəb rəhbərləri, müəllimlər, bir sözlə, məktəb heyəti şagirdlərlə maariflədirmə işi aparmalıdır. Kiməsə "yox" deməyi aşılamalıdırlar. Uşaqlara təhsil ocaqlarında hüquqları öyrədilməlidir. Təəssüf edirəm ki, hazırda bu mövzularla bağlı dərs proqramı yoxdur. Valideynlər və müəllimlər hər aspektdən şagirdlərə xüsusi diqqət göstərməlidir".

**Cəmilə ƏZİM**

# Heyvanlar da elektron sistemə daxil edildi

## Bu qərar tibbi nəzarətin təşkil edilməsi üçün irəliyə doğru bir addımdır

**7 minə yaxın iribuynuzlu heyvan haqqında məlumatlar elektron sistemə daxil edilib.**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) təşkilatçılığı, Dünya Bankının dəstəyi ilə heyvanların identifikasiyası və qeydiyyatı davam etdirilir. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda ailə-kəndli və fermer təsərrüfatlarında 6829 sayda iribuynuzlu heyvan identikləşdirilərək həm təsərrüfatlar, həm də heyvanlar haqqında məlumatlar elektron sistemə əlavə olunub. İdentikləşdirilən heyvanlardan 1417-si Bakı şəhəri, 5412-si isə Sumqayıt şəhərinin payına düşür. Ölkəmizdə yaradılan Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sistemi (HİQS) heyvanların məruz qaldığı xəstəlikləri, profilaktik, müalicə tədbirləri, tətbiq edilən preparatları, diaqnostik sınaqları və onların nəticələri, heyvanın hərəkətini təchiz edir. Həmçinin sahibləri və digər individual göstəriciləri barədə məlumatların unikal identifikasiya kodu ilə əlaqələndirilmiş qaydada toplanılaraq, idarə olunmasını təmin edir. Tətbiq olunan preparatların orqanizmdən xaricolma müddətinin gözlənilməsi, alqı-satqısı, daşınması və kəsim dövründə heyvanlara nəzarət edilməsi, itmiş heyvanların axtarılması və ya tapılmış heyvanların sahibinin aşkar edilməsi, digər bu kimi proseslərin idarə olunması identifikasiya sisteminin əsas funksiyalarıdır. Bu sistem "fermadan süfrəyədək" prinsipinə uyğun olaraq heyvan mənşəli qida məhsullarının izlənilməsinə şərait yaradır. Eyni zamanda təhlükəsizliyinə, insan sağlamlığının təmin olunmasına və yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınmasına imkan verir. Heyvanların identifikasiyası heyvan mənşəli məhsulların təhlükəsizliyinin təmin olunması ilə yanaşı, istehsal edilən məhsulların ixrac tələblərinin yerinə yetirilməsinə zəmin yaradır.



Bu sistemin tətbiqi ilə heyvanların genetik məlumatlarının izlənməsi, damazlıq işinin təşkili, qida təhlükəsizliyi üzrə risklərin aşkar edilməsi, idarə olunması, baytarlıq-sanitariya və heyvan sağlamlığı ilə bağlı digər zəruri tədbirlər tənzimlənəcək. Bunun əsasında ölkəmizin müasir qida təhlükəsizliyi standartına inteqrasiyası təmin ediləcək.

Qeyd edək ki, identifikasiyanın ilk mərhələsində pilot layihə olaraq Bakı və Sumqayıt şəhərində, eləcə də Abşeron rayonunda iribuynuzlu heyvanların və atların identikləşdirilməsi həyata keçirilir. 2022-ci ildən etibarən isə identifikasiyanın mərhələli şəkildə bütün ölkə üzrə tətbiq olunması nəzərdə tutulur.

**Heyvanların elektron bazalarının yaradılması barədə "Şərq"ə danışan iqtisadçı-ekspert Natiq Cəfərli bildirib ki, iri və xırdabuynuzlu mal-qaranın qeydiyyata alınması elektron idarəetmənin, tibbi nəzarətin təşkili üçün irəliyə doğru bir addımdır:**

"Bu, kənd təsərrüfatında planlı şəkildə qərarların verilməsinə yardımçı ola bilər. Amma reyestrin yaradılmasının bu sahəni inkişaf etdirəcəyini söyləmək doğru deyil. Ona görə də ilkin olaraq sahə üzrə idarəetmənin şəffaflaşdırılması, təsnifatların aparılması, kənd təsərrüfatının layihələşdirilməsində müsbət dəyərləndirilə bilər. Həmçinin mal-qara sahəsinin planlaşdırılmasında pozitiv rol oynaya bilər".

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2809



## “Biz birlikdə böyüyürük"

### Van Dammın oğlu azərbaycanlı həyat yoldaşı ilə fotosunu paylaşdı

**Dünyaca məşhur aktyor Jan Klod Van Dammın oğlu Kristofer Van Damm instaqram hesabında yeni paylaşım edib.**

”Şərq” xəbər verir ki, o, altı ay əvvəl ailə qurduğu azərbaycanlı pianoçu Suada Hacızadəylə fotosunu izləyiciləri ilə bölüşüb. Kristofer açıqlama hissəsində bu sözləri qeyd edib: ”Biz birlikdə böyüyürük. Mən səni sevirəm, Suada”.

**Aygün Tahir**

## Kanadada temperatur -55 dərəcə selsiyə enib



**Kanadanın mərkəzi və Qərb əyalətlərində ekstremal şaxta hökm sürür.**

APA-nın xəbərinə görə, bu barədə ölkənin Milli Meteorologiya Bürosu məlumat yayıb.

Büro həmçinin kəskin şaxtalar barədə də xəbərdarlıq edib. Albert, Britaniya Kolumbiyası, Ontario və Saskaçevan əyalətlərində temperaturun -35-lə -55 dərəcə arasında dəyişəcəyi bildirilir. Hazırda gənclər arasında xokkey çempionatının keçirildiyi Edmontonda temperatur -45 dərəcəyə enib. Sinoptiklər ekstremal soyuq havanın donmaya səbəb ola biləcəyi barədə xəbərdarlıq ediblər.

## Kütləvi "robot avtomobil"lər istehsal olunacaq



**Çinin ”Baidu” texnologiya şirkəti 2023-cü ildən pilotsuz ”robotmobil”lərin kütləvi istehsalına başlayacaq.**

**Trend-in məlumatına görə, bunu şirkətin baş direktoru Robin Li deyib.**

**O qeyd edib ki, gələn il ”robot avtomobil”in ilk prototipi hazırlanacaq. Onun sözlərinə görə, gələcəkdə pilotsuz avtomobillərin geniş yayılması Çində iri şəhərlərin yollarında tıxac probleminin həllində kömək edəcək.**

**Qeyd edək ki, ”Baidu” şirkəti 2000-ci ildə təsis edilib. Şirkət Çinin ən böyük internet axtarış sisteminin təsisçisidir.**

## Süni intellekt prokurorluq fəaliyyətinə başlayıb



**Çinin Şanxay şəhərində süni intellekt ilk dəfə prokurorluğun ittiham aktının mətnini tərtib edib.**

**Trend-in məlumatına görə, ”rəqəmsal prokuror” ittihamları 97 faiz dəqiqliklə irəli sürür.**

**Qeyd olunur ki, süni intellekt prokurorluq bacarıqlarını 2015-2020-ci illər ərzində 17 mindən çox məhkəmə işini öyrənməklə əldə edib.**

**Hazırda ”rəqəmsal prokuror” daha geniş yayılmış 8 cinayət üzrə ittiham irəli sürə bilir. Bu aktlara kredit kartları ilə fırıldaq, mərc oyunlarının təşkili, yol-nəqliyyat qaydaları, oğurluq kimi qanun pozuntuları daxildir.**

**Mütəxəssislərin fikrincə, gələcəkdə süni intellekt daha çox ək-səda doğuran qayda pozuntuları ilə bağlı da ittihamlar irəli sürə biləcək.**

## Qorxunc hadisə

### Qadını müayinə edən həkim şok yaşadı



**Əlcəzairdə tibb tarixində nadir baş verən hadisə qeydə alınıb.**

**Metbuat.az xəbər verir ki, qarın ağrısı şikayəti ilə həkimə gedən 73 yaşlı qadın müayinə edilib. Bildirilir ki, müayinə zamanı həkimlər qadının qarnında bərk formada döl aşkar ediblər. Dərhal əməliyyat edilən qadının vəziyyəti normaldır.**

**Bildirilir ki, uşaq 7 aylıq olarkən tələf olub. Lakin döl qadının qarnından təmizlənməyib. Məlum olub ki, qadın 35 ildir belə vəziyyətdə yaşayıb. Qadın bundan əvvəl həkimə gedərək müalicə olunub. Lakin həkimlər qadının qarnında döl olduğunu bilməyiblər.**





# Evdə yalnız qalmaq qorxusu: monofobi!



### İnsanların qulağına səslər gəlir, başı fırlanır, ürək döyüntüləri artır

**Məlahət Rzayeva**

**Tədqiqatlar göstərir ki, psixoloji dəstək almaq istəyənlərin əksəriyyətində yalnız qalmaq qorxusu xəstəliyi - monofobi müşahidə edilir. Bu insanlar evdə tək qalmaqdan qorxur, evdə yad addım səsləri eşitdiklərini deyir, özündən başqa daha kiminsə evdə olduğunu zənn edirlər. ”Baş verənləri” də qeyri-adi varlıqlarla əsaslandırmağa çalışırlar.**

.Əslində isə bütün bunlar monofobi xəstəliyinin ilkin əlamətləridir. ”Şərq” ”Milliyet.com”a istinadən xəbər verir ki, 2020-ci ildən etibarən bu xəstəliyin əlamətləri bir çox insanda özünü göstərməyə başlayıb. Bunun əsas səbəblərindən biri də COVİD-19 pandemiyasıdır. Pandemiyada evə qapanmalar, karantin rejimi, yoluxma zamanı ətraf mühitdən, doğmalardan təcrid olunma insanlarda bəzi psixoloji problemlərin ortaya çıxmasına səbəb olub, onlardan biri də monofobidir. Monofobi əvvəllər də mövcud idi. Amma son illərdə internet texnologiyalarının sürətlə artması, insanları daha çox tənhalaşdırır. **Türkiyənin kliniki psixologiya üzrə tanınmış mütəxəssisi Pelin Hazer monofobinin xüsusiyyətlərini açıqlayıb. Psixoloq bildirir ki, monofobi - yalnız qalmaq qorxusu psixoloji xəstəlikdir.** Yaşadıqlarını sosial mediada anladan xəstələrdən biri ”başlanğıcda tək olanda yaxınlarıma zəng edirdim, o zaman elə bilirdim ki, bu, normaldır. Lakin getdikcə nəfəs darlığı hiss etdim, ürək döyüntülərim artdı. Həkimə getdim, orqanizmdə heç bir problem olmadığını dedi və mənə psixoloqa müraciət etməyi məsləhət gördü. Psixoloqdan bunun monofobi xəstəliyinin əlamətləri olduğunu öyrəndim. Çox çətin bir dövr oldu mənim üçün” yazıb. P.Hazer monofobinin hər insanda fərqli şəkildə büruzə verdiyini bildirib: ”İnsan mənzildə hətta təhlükəsiz şəraitdə olduğunu bildiyi halda başına gözlənilməz qəza, bir bəla gələ biləcəyinə özünü inandırır. Buna görə də gün boyunca evdə yalnız qalmaqdan qorxmağa başlayır. Yaşanan panika, təlaşın əlamətləri insanın əvvəllər keçirmiş olduğu travma və ya beynində kodlaşdırdığı qorxuya görə dəyişə bilir. Bəzi insanların qulağına səslər gəlir, başı fırlanır, ürək döyüntüləri artır. İnsanı tər basır. Gücsüzləşir. Bunlar monofobinin əlamətləridir ”. Başqa bir sosial media istifadəçisi isə belə yazıb: Bir müddət evdə tək qaldım. Yaşadığım qorxunun səbəbini hələ də anlamıram. Buna qeyri-adi varlıqların səbəb olduğunu düşünürdüm. Bir müddət sonra vəziyyət daha da ağırlaşanda antidepressiv dərmanlar qəbul etməyə başladım. Amma bu, vəziyyəti daha da ağırlaşdırdı. Elə bilirdim ömür yolunun sonundayam və öləcəyəm”. Psixoloq bu cür qorxu hissi yaşayanların mütləq psixoloji yardım almasını məsləhət görür: ”Müxtəlif terapiya metodları vardır. Qrup halında terapiya da bənzər fobilərin aradan qaldırılmasına yardım edir”. Psixoloq monofobiya xəstəliyinin hər yaşda özünü göstərə biləcəyini, bu insanlara daha həssas və diqqətli yanaşmağı tövsiyə edib.




# Davamlı yatızdırılır

### 4 yaşlı Asiyənin durumu hələ də ağırdır



**Türkiyənin Qaziantep şəhərində pitbull cinsi 2 itin hücumuna məruz qalan 4 yaşlı Asiyə Atəşin durumu hələ də ağırdır. Uşaq günlərdir reanimasiya şöbəsindədir.**

Davamlı yatızdırılır, süni şəkildə qidalandırılır. Türkiyə Səhiyyə naziri Fəxrəddin Qocanın məsləhətiylə Asiyə müalicə olunduğu Qaziantep Universiteti Araşdırma və Uyqulama Xəstəxanasından Antalya Ağdəniz Universitetinə köçürülüb. Səhiyyə naziri Asiyəyə toxuma nəqli və plastik cərrahiyyə əməliyyatının Türkiyədə ilk üz və qol nəqlini həyata keçirmiş professor Ömər Özkanın icra etməsini və həkimin bu əməliiyata və Asiyənin müalicəsinə birbaşa cavabdeh olmasını istəyib. Hazırlıqlardan sonra qızcığaz əməliyyata alınıb. 4 saat çəkən ilk əməliyyat zamanı uşağın bud və bel nahiyəsindən toxuma alınaraq zədələnmiş baş və üz toxumalarının əvəzinə köçürülüb. Xəstəxananın baş həkimi professor Yıldıray Çete ”xəstəmizin durumu yaxşıdır. Nəql edilmiş toxumalarla bağlı da heç bir sıxıntı yoxdur. Uşaq hazırda xüsusi palatada, daimi nəzarət altındadır. Asiyə davamlı yatırdılır, süni şəkildə qidalandırılır. Vəziyyəti stabildir”, açıqlamasını verib. Toxuma nəqlini həyata keçirmiş professor Ömər Özkan da Asiyənin vəziyyətinin getdikcə müsbətə doğru dəyişdiyini deyib: ”Uşağın üzündə, başında ciddi yaralar vardı. Həyatı təhlükə altında idi. Qaziantep Xəstəxanasında lazım olanları etmişdilər. İlkin yardım belə hallarda çox önəmlidir. Burda isə kiçik qızımıza toxuma nəqli əməliyyatını icra etdik. Dövlət başçımız, səhiyyə naziri durumla yaxından maraqlandı. Biz də əlimizdən gələni etdik. Təcili əməliyyat keçirməli olduq. Uğurlu oldu. İndi vəziyyəti yaxşıdır. Tək istəyimiz Asiyə qızımızı gülə-gülə evlərinə göndərməkdir. İnşəllah, Asiyə bundan sonra gözəl günlər görəcək”, söyləyib.

*Qeyd edək ki, itlərin hücumuna məruz qalmış 4 yaşlı qızçığazın durumu ölkə boyu əks-səda doğurub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hadisədən təsirlənərək uşağın atasıyla telefon əlaqəsi yaradıb, körpə qıza şəfa diləyib, dövlətin lazım olan dəstəyi göstərəcəyini deyib. Antalya valisi isə evdə heyvan bəsləyənlərə çağırış edib: ”Belə faciəli hadisələr təkrarlanmasın deyə, heyvansevərlər həssas və diqqətli olmalı, heyvanları ictimai yerlərdə nəzarətsiz qoymamalıdır”, deyib.*

**Məlahət**

## Alimlər təşvişdədir

### İndi də koronanın “Delmicron” adlı ikili variantı ortaya çıxdı



**Dünyada, o cümlədən Türkiyədə artan ”Omicron”a yoluxma halları ”COVİD-19”un üçüncü və dördüncü dalğasının mümkünlüyü ilə bağlı narahatlıqları artırıb.**

Mütəxəssislər hələ də yeni variantın mahiyyətini anlamaqda çətinlik çəkdiyi bir vaxtda, ”Delmicron” adlı ikili variantın ortaya çıxdığı da bəlli olub.

”Şərq” ”NTV”-yə istinadən xəbər verir ki, elm adamları adı ”Delta və ”Omicron” adlarının birləşməsiylə yaradılan bu növün ABŞ və Avropada ”COVİD-19” sunamisinə səbəb olduğunu açıqlayıb. ”Delmicron” adından da göründüyü kimi, o, həm ”Delta” variantının, həm də ”Omicron” variantının müxtəlif xüsusiyyətlərini daşıyır və ciddi xəstəliklərə səbəb olduğu düşünülür.

”Delmicron” ”Alfa”, ”Beta”, ”Gamma” və başqa variantlar kimi korona virusunun yeni mutasiyaya uğrayan variantı deyil, iki mövcud variantın (”Delta” və ”Omicron”) birləşməsindən ibarətdir. Xüsusilə Qərbdə sürətlə yayılır.

Hindistandan Dr. Şaşank Coşi bu haqda ”Times of India” qəzetinə bildirib: ”Bu yeni variant Avropa və ABŞ-da ”Delta” və ”Omicron”un yüksəlişindən sonra yaranıb, onların qarşılıqlı sünbül zülallarının birləşməsindən əmələ gəlib”.

İkiqat variantın təbiəti haqqında öyrənmək üçün əlavə iş lazımdır. ”Delta” və ”Omicron”un ümumi simptomlarına aşağıdakılar daxildir: Boğaz ağrısı, davamlı öskürək, baş ağrısı, dad və ya qoxu hisslərində dəyişiklik, burun axması, yüksək hərarət və.s.

**Cəmilə Əzim**

## 9 saat liftdə qaldı

### 90 yaşlı qadını nəvəsi “xilas” etdi



**Rusiyanın Leninqrad vilayətində itkin düşdüyü güman edilən 90 yaşlı qadın Anuzə Sidorova 9 saat sonra liftdə tapılıb.**

Lent.az xəbər verir ki, hadisə Koltuşi kəndində baş verib.

O, gəzintidən evə qayıdarkən liftə minib və texniki nasazlıq üzündən mənzilə qalxa bilməyib. Yaşlı qadının evə gəlmədiyini görən yaxınları polisə məlumat verib.

Axşam saatlarında nəvəsi liftdən nənəsinin öskürəyini eşidib və idarəetmə şirkətinə zəng edib. Bundan sonra lift işə salınıb və təqaüdçü xilas edilib.

Hadisə ilə bağlı hüquq-mühafizə orqanlarının əməkdaşları araşdırmaya başlayıb. Bildirilib ki, bütün detallar və səbəblər müəyyən ediləcək, günahkarlar cinayət məsuliyyətinə cəlb ediləcək.